Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

1
OKTYABR
2019-cu il

№ 174 (4072)

Qiymәti
40 qәpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# ERMƏNİSTAN YENİ XOFDA - PUTİNİN GEDİŞLƏRİ QARABAĞ MƏSƏLƏSİNDƏ ÖZÜNÜ YAXIN VAXTLARDA GÖSTƏRƏCƏK...

■ səh. 9 ■

Soçidə Əliyev-Putin görüşündə gözləntilər - 2017-də Sarkisyanın Soçidə küncə dirənildiyi prosesin oxşarı başlaya bilər...

■ səh. 3 ■

Trampın vəkilinin İrəvan səfərindən imtinasının arxasında anti-Ermənistan siyasi motivlər...

■ səh. 5 ■

Paşinyan Amulsar barədə siyasi qərarın məsuliyyətini parlamentin üzərinə yönəldir...

■ səh. 6 ■

Azərbaycanda lombard probleminin sonu çatır, yoxsa...

■ səh. 7 ■

"Olimp"" MTK ilə Binəqədidə bina sahiblərinin 6 min manat mübahisəsi - hər mənzil üçün...

■ səh. 14 ■

Orta məktəblərdə xüsusi istedadlı uşaqlar üçün ayrıca siniflər şəbəkəsi genişlənir

■ səh. 11 ■

Sabunçuda 8 min nəfərlik 6-cı mədən yaşayış sahəsi dəhşətli çirkab axınları altında...

■ səh. 14 ■



## Paşinyana yeni ittihamlar - ölkə qanunlarla yox, qərbyönlü QHT-in nizamnamələri ilə idarə olunur, diasporu parçalayır...

■ səh. 8 ■



## Əli Kərimliyə qarşı «tərəfdarlar üsyanı» bütün ölkə boyu rezonans doğurub...

■ səh. 4 ■

## Azərbaycan pilotunun yasını siyasiləşdirən radikallara Fransa siyasi praktikasından zərbə...

■ səh. 3 ■



## Putinin şəraba yeni aksiz qərarları - Rusiya bazarında Azərbaycan şərabını nə gözləyir?

■ səh. 10 ■

■ səh. 5 ■
Trampın impiçmenti və Zelenskinin sonrakı taleyi - Ukrayna daxilində nələr baş verəcək...



■ səh. 11 ■
Canlı "Facebook" yayımlarında iştirak sürücülərin qəza törətməsinin əsas səbəblərindən birinə çevrilir



■ səh. 10 ■
Dövriyyədə saxta yüz manatlıq əskinasların artım məsələsi ciddiləşir



■ səh. 13 ■
İnternet məkanda Azərbaycan dilinin orfoqrafiyasına nəzarət sistemi nə vaxt olacaq...



■ səh. 12 ■
Azərbaycanda min manatdan çox maaş alan müəllimlərin sayı 5 mini ötdü...



## Prezident İlham Əliyev Ağsu Rayon İcra Hakimiyyətinə yeni başçı təyin etdi

**Prezident İlham Əliyev Ənvər Seyidəliyevin Ağsu Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Ənvər Qasım oğlu Seyidəliyev Ağsu Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin. Prezident İlham Əliyevin digər sərəncamı ilə Vahid Heydər oğlu Tağıyev Ağsu Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.

## Rəfael Cəbrayılov deputat mandatından imtina etdi

*Məsələ hüquqi müstəvidə həllini tapdı*

**Milli Məclisin deputatı Rəfael Cəbrayılov mandatdan imtina etməsi ilə bağlı özü Milli Məclisə müraciət edib. O, Konstitutsiyanın verdiyi səlahiyyətdən istifadə edərək özü istefa verdiyini bildirib.**



Baki-xeber.com xəbər verir ki, bu haqda məlumatı Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli verib. "Rəfael Cəbrayılov Azərbaycan xalqından və dövlətindən üzr istədiyini və istefa verdiyini Milli Məclisə bildirib" - Hüseynli deyib. Ə.Hüseynli bildirib ki, R.Cəbrayılovun müraciəti barədə Mərkəzi Seçki Komissiyası qərar qəbul edəcək. Rafael Cəbrayılovla bağlı məsələ hüquqi müstəvidə həllini tapdı. Bunun nə mətbuatda, nə də parlamentdə müzakirəsinə ehtiyac var. Bunu isə Milli Məclisin sentyabrın 30-da keçirilən plenar iclasında Yeni Azərbaycan Partiyasının (YAP) İcra katibinin müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib. S.Novruzov bildirib ki, istefa mədəniyyəti hər yerdə var. Deputat əlavə edib ki, vaxtilə Milli Məclisə namizədliyini irəli sürən, amma xalq tərəfindən etimad qazanmayanlar, xaricdə oturub Azərbaycanın əleyhinə iş aparanlar, qarayaxma ilə məşğul olanlar bu hadisədən sui-istifadə edirlər: "Öz partiyasında əxlaq və mənəviyyatla məşğul ola bilməyənlər bu məsələni şişirdib ortaya çıxarırlar". Qeyd edək ki, Rəfael Cəbrayılov MM-in Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü idi.

## Almaniya səfirindən Qarabağ açıqlaması -"həlli gözləyirlər, ancaq dözümlü olun..."

**Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ABŞ-dakı görüşü müsbət amildir.**

"Trend"in məlumatına görə, bunu Almaniyanın Azərbaycandakı səfiri Volfqanq Maniq mətbuat konfransında deyib. O, ATƏT-in Minsk Qrupunun həmsədrlərinə təşəkkür edib: "Bu münaqişənin qəliz olmasına baxmayaraq, onlar tərəflər arasında sakit mühitdə danışıqları təmin edə bilib. Mən bilirəm ki, bu cür hallarda insan problemin həllini səbrsizliklə gözləyir, amma bu məsələ dözüm tələb edir. Nazirlərin baş tutmuş görüşü münaqişənin həllinə gətirib çıxarmasa da, müsbət siqnaldır".

# "Heydər Əliyev də prezident kimi ilk səfərini Fransaya etdi, mən də..."

## *Prezident İlham Əliyev Fransa Senatının Fransa-Qafqaz dostluq qrupu sədrini qəbul etdi*



**Prezident İlham Əliyev sentyabrın 30-da Fransa Senatının Fransa-Qafqaz dostluq qrupunun sədri və Azərbaycan üzrə sədr müavini Alen Uperin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev deyib ki, bu səfər Fransa-Azərbaycan əlaqələrinin gələcək inkişafında önəmli rol oynayacaq:"Bu yaxınlarda səfirin etimadnaməsini qəbul edərkən Fransa-Azərbaycan əlaqələri haqqında öz fikirlərimi bölüşdüm. Hesab edirəm ki, əvvəlki dövrlərdə bu əlaqələrin inkişafı istiqamətində böyük işlər görülmüşdür və müxtəlif sahələrdə Fransa-Azərbaycan əlaqələri uğurla inkişaf edir. Siyasi əlaqələrimiz həmişə yüksək səviyyədə olub. Dövlət başçıları səviyyəsində bir çox qarşılıqlı səfərlər edilib. Onu da bildirməliyəm ki, Heydər Əliyevin Prezident vəzifəsinə seçiləndən sonra ilk xarici səfəri Fransaya olmuşdur. Mənim də Prezident vəzifəsinə seçilməyimdən sonra ilk rəsmi səfərim Prezident Jak Şirakın dəvəti ilə Fransaya olub. Fürsətdən istifadə edərək Prezident Jak Şirakın vəfatı ilə əlaqədar bir daha başsağlığı verirəm. Fransa prezidentləri Azərbaycana rəsmi səfərlər etmişlər və keçən ilin iyul ayında mənim Fransaya səfərim çərçivəsində Prezident Makron ilə çox səmimi görüşümüz olub. Yüksək səviyyəli səfərlər bütün sahələrdə əlaqələrin inkişafına güclü təkan verib. Təsadüfi deyil ki, bir çox sahələrdə, o cümlədən energetika, nəqliyyat, kosmik sənaye, kənd təsərrüfatı, təhsil və digər sahələrdə əlaqələrimiz uğurla inkişaf edir. Əlbəttə ki, parlamentlərarası əlaqələr ümumi əlaqələrimizin inkişafına çox mühüm töhfə vermişdir. Əminəm ki, sizin səfəriniz də bu istiqamətdə çox uğurlu və önəmli addım olacaqdır".

Fransa Senatının Fransa-Qafqaz dostluq qrupunun sədri və Azərbaycan üzrə sədr müavini Alen Uper öz növbəsində deyib ki, ölkənin birinci şəxsi tərəfindən nümayəndə heyətinin qəbul edilməsindən şərəf hissi duyur:"Səfir bu yaxınlarda təyin olunub və öz fəaliyyətinə artıq başlayıb. Şəxsən öz adımdan və Fransa adından Sizə və xanımınıza təşəkkürümüzü bildiririk ki, Prezident Şirakın vəfatı ilə əlaqədar siz dostluğunuzu nümayiş etdirdiniz. Dostluğun müddəti olmur. Siz bunu sübuta yetirdiniz. Ölkələrimizi səciyyələndirəcək bir söz olarsa, o, dostluq sözü olardı. Ölkələrimiz arasında güclü əlaqələr var. Çünki bir əsrdən çox müddət əvvəl sizin hökumətiniz Fransada mühacir olmuşdur. General de Qol hələ 1944-cü ildə burada olmuşdur".

Alen Uper mədəniyyətlərarası və dinlərarası dialoqda Azərbaycanın əhəmiyyətini xüsusi vurğulayıb və Fransada bu mövzu ilə əlaqədar müzakirələr aparılan zaman Azərbaycanı nümunə kimi təqdim etdiyini bildirib.

Dövlət başçısı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə əlaqədar Azərbaycanın mövqeyini diqqətə çatdıraraq bildirib ki, bu münaqişə yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Görüşdə Azərbaycanla Fransa arasında dostluq və əməkdaşlığın inkişafında Birinci vitse-prezident Mehriban Əliyevanın xüsusi rolu qeyd olunub. Həmçinin söhbət zamanı iki ölkə arasında elmi tədqiqat, tibb və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

# Baş Prokurorluq Xırdalanda ağır cinayətin guya ört-basdır edildiyi barədə KİV məlumatlarını ciddi arqumentlə təkzib etdi



**Baş Prokurorluq KİV-də yayılmış ittihamlara cavab verib.**

Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Eldar Sultanov "Trend"ə açıqlamasında bildirib ki, Abşeron rayon sakini Pərviz Həbibovun öldürülməsi faktı üzrə prokurorluq orqanlarında tam, hərtərəfli və obyektiv istintaq aparılmaqla təqsirləndirilən şəxs Ələkbər Ağakişiyevin məhkəmə məsuliyyətinə verilməsinə baxmayaraq, bəzi kütləvi informasiya vasitələri və sosial şəbəkələrdə cinayətin guya ört-basdır edilməsi, sonuncunun cinayət məsuliyyətindən azad edilməsinə dair informasiyalar yayılıb. E.Sultanov deyib ki, həmin məlumatlar həqiqəti əks etdirmədiyindən tərəfimizdən qəti şəkildə təkzib olunur və ictimai rəyi çaşdırmaq, prokurorluq orqanlarının nüfuzuna kölgə salmaq məqsədi güdür.

-Belə ki, Azərbaycan Həndbol Federasiyasının baş hakimi vəzifəsində işləmiş Ələkbər Ağakişiyevin bacısının nişanlısı Pərviz Həbibovu ailəsinin ünvanına nalayiq sözlər işlətməsinə görə qisas almaq məqsədi ilə 21 iyun 2018-ci il tarixdə döyərək xəsarət yetirməsi nəticəsində sonuncunun 28 iyun 2018-ci il tarixdə yaşadığı ünvanda vəfat etməsi faktına görə Ə.Ağakişiyev təqsirləndirilən şəxs qismində cəlb olunaraq Cinayət Məcəlləsinin 126.3-cü (Qəsdən sağlamlığa ağır zərər vurma zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsində nəzərdə tutulan ittiham elan edilməklə cinayət işi üzrə istintaq tamamlanaraq 24 yanvar 2019-cu il tarixdə baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Bakı Ağır Cinayətlər Məhkəməsinin 17 aprel 2019-cu il tarixli hökmü ilə Ə.Ağakişiyevin əməli Cinayət Məcəlləsinin 126.3-cü maddəsindən 124.1-ci (Ehtiyatsızlıqdan adam öldürmə) maddəsinə tövsif edilib və o, həmin maddə ilə təqsirli bilinib 2 il müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilib.

Həmin hökm qanunsuz hesab edildiyindən, Ə.Ağakişiyevin Cinayət Məcəlləsinin 126.3-cü maddəsi ilə təqsirli bilinib həmin maddənin sanksiyasında nəzərdə tutulmuş azadlıqdan məhrum etmə cəzası təyin edilməsi barədə tərəfimizdən apellyasiya protesti verilib.

Bakı Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 9 sentyabr 2019-cu il tarixli qərarı ilə apellyasiya protesti təmin edilməyib, hökm dəyişdirilmədən saxlanıb.

**Baş Prokurorluq olaraq, həmin qərarla razılaşmayaraq 13 sentyabr 2019-cu il tarixdə tərəfimizdən Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasına kassasiya protesti verilib.**

# Soçidə Əliyev-Putin görüşündə gözləntilər - 2017-də Sarkisyanın Soçidə küncə dirənildiyi prosesin oxşarı başlaya bilər...

**Məlum olduğu kimi, Rusiya və Azərbaycan prezidentləri Vladimir Putin və İlham Əliyev oktyabrın 3-də Soçidə görüşəcəklər. Bu barədə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov jurnalistlərlə söhbətində bildirib. Görüş Valday klubunun oktyabrın 3-də Soçidə keçiriləcək iclası çərçivəsində baş tutacaq. Sessiyada Azərbaycan, Qazaxıstan, Filippin prezidentləri, habelə İordaniya kralı iştirak edəcək.**

"Onlar "Valday" iclasında panelçi kimi çıxış və iştirak edəcəklər. Bundan əvvəl Putinin öz həmkarları ilə ayrı-ayrılıqda ikitərəfli görüşləri keçiriləcək", deyə "RİA-Novosti" Peskovdan sitat gətirir. Qeyd edək ki, məkan baxımından belə bir görüşün keçirilməsi bizi bir qədər arxaya ekskurs edib, müəyyən paralellər aparmağa vadar etdi. Xatırladaq ki, 2017-ci ildə məhz Soçidə Putinlə İlham Əliyev arasında keçirilən görüşün Ermənistan üçün acı nəticələri oldu. İlham Əliyevlə 2017-ci ildə baş tutan görüşdən sonra Putin Sarkisyanla görüşdü. Hiss olundu ki, Sarkisyan həmin görüşdən sonra çox gərgindir.

Həmin vaxt erməni mətbuatını izləyənlər bilirlər ki, onlardakı narahatlıq böyük idi. Erməni şərhçilər Rusiyanın Azərbaycanı niyə cəzalandırmaması, niyə Azərbaycanın silahlanmasına göz yumması barədə məyus şərhlər yazmağa başlamışdılar.

Putin və Əliyev görüşünün Soçidə səmimi şəraitdə keçməsi bu məyusluğu daha da artırmışdı. Bəzi erməni şərhçilər hətta Putindən soruşurdu ki, niyə o, İlham Əliyevdən tələb etməyib ki, "İsgəndər" raketlərini vuran sistemi haradan aldığının yerini desin? Sonra isə onlar yazırdılar ki, Putin, konkret olaraq, Ermənistana ətraf rayonları qaytarmaqla bağlı təzyiq edir. Görünür, Sarkisyan Putinin tələblərinə məhəl qoymadığı üçün, devrilmək aqibətini yaşamalı oldu. Məkan yenə Soçidir. Putin bu dəfə də bir gün fərqi ilə həm Ermənistan, həm də Azərbaycan dövlət başçısı ilə görüçəcək. Ermənistanla Rusiya arasındakı münasibətlər çox gərgindir. Bizimlə Moskva arasındakı əlaqələrdə isə inkişaf dinamikası yaşanır. Rusiya Dağlıq Qarabağ problemində fəallıq nümayiş etdirmək istəyir. Bu, aydın şəkildə nəzərə çarpır.



Təbii ki, bu konfliktdə hansısa nəticənin əldə olunması Ermənistanın atacağı güzəşt addımlarından asılıdır. Yəqin ki, bu Soşi görüşü də Ermənistanın taleyi üçün həlledici əhəmiyyət daşıyacaq. Paşinyan bunun fərqindədir. Onun ya Rusiyanın təklif edəcəyi kompromislə razılaşacağına, ya da Sarkisyanın aqibətini yaşamaq kimi dilemma qarşısında qalacağına qəti şübhə ola bilməz.

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycan pilotunun yasını siyasiləşdirən radikallara Fransa siyasi praktikasından zərbə...

***Qabil Hüseynli:** "Bu cür hadisələri örnək kimi bizimkilərə göstərmək lazımdır"*

**Bu günlərdə dünyasını dəyişən Fransanın eks-prezidenti Jak Şirakın ailəsi həmin ölkənin Milli Birlik Partiyasının rəhbəri Mari Lipenə müraciət edərək bildirib ki, yas mərasimində iştirak etməsin. Lipen isə həmin müraciəti anlayışla qarşılayaraq, dəfndə iştirak etməyəcəyini bəyan edib. Qeyd edək ki, Şirakın dəfnində Fransa Prezidenti Emmanuel Makronun və 30 ölkənin başçısının iştirakı gözlənir.**

Xatırladaq ki, Mari Lipenin atası və özünün siyasi karyerası ərzində mərhum Şirakla münasibətləri hər zaman gərgin olub. Çox güman ki, qərarın verilməsi bu amillə bağlıdır. Jak Şirak 86 yaşında dünyasını dəyişib. O, 1995-2007-ci illər ərzində Fransanın dövlət başçısı olub. Bu hadisə ilə Azərbaycanda bu yaxınlarda baş verən bir hadisə arasında paralel aparmaq istərdik. Yadınızdadırsa, Xəzər dənizi üzərində təlim zamanı qəzaya uğrayan pilot Rəşad Atakişiyevin dəfnində onun ailəsi adından radikal müxalifətə yası siyasiləşdirməmək istəyilə bir müraciət edildi. Həmin müraciətdə onlar radikal müxalifətdən yasda iştirak etməməklə bağlı xahiş edirdilər. Ancaq radikal müxalifət həmin müraciətə tabe olmaq istəmirdi. Hətta məsələni tam siyasiləşdirərək, bunu hakimiyyətin oyunu kimi qələmə verdilər. Fransada baş verən hadisə Azərbaycandakı radikallara bir dərs sayıla bilərmi?

Rəşad Atakişiyevin qaynatası, sabiq dövlət müşaviri Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, məlum müraciət onun tərəfindən olunmuşdu: "Bilirsiniz, yasa gələn insanlar ölü yiyəsinə hörmət əlamətini göstərmək üçün həmin addımı atırlar. Yəni gəlib yas yiyəsinə ehtiramlarını ifadə edirlər. Kiminsə yasından siyasi məqsədlə istifadə isə tamamilə yolverilməzdir. Bəlkə kimsə bunu istəyə bilər. Ancaq pilotun ailəsi bunu qətiyyən istəmirdi. Mən bu mövzuya bir daha qayıtmaq istəməzdim. Çünki bir neçə gün həmin müraciətə görə məni, sözün əsl mənasında, söydülər. Mən orada ümumi bir müraciət etmişdim. Konkret olaraq hansısa siyasətçinin adını çəkməmişdim. Bir ay müddətində mənim və qudamın ailəsi ağır həyəcan, iztirab keçirdi. Bu müddət ərzində bizimlə maraqlanmadılar. Gəlib qapımızı döyüb, dərdimizə şərik çıxan olmadı.



Amma birdən-birə dəfn mərasimində bizim qulağımıza səs dəydi ki, kimlərsə başqa söhbətlər edir. Buna görə də mən mərasimin siyasiləşməsinin əleyhinə fikir ifadə edərək vurğuladım ki, kimsə buna cəhd edəcəksə, yaxşı olar ki, iştirak etməsin. Bunu bütün müxalifətçilərin ünvanına deməmişəm. Hətta bəzi müxalifət nümayəndələri gəlib iştirak da etdilər. Nə problem oldu ki? Kiminsə adının çəkilməsi görürsünüz ki, başqa ölkədə baş verir. Dünyanın inkişaf etmiş ölkəsində, çox tanınmış bir siyasətçi bunu böyük anlayışla qarşılayır. Bizdə niyə bunu etmirlər? Hesab edirəm ki, bu, elə radikal düşüncəli, kiminsə yasını siyasiləşdirməyə çalışanlar üçün gözəl bir örnək modelidir.

Bizdə deyirdilər ki, şəhid hamının şəhididir. Bunu qəbul edirik, amma yas yiyələrinin də bir haqqı olan məsələ var. Müxalifət haradasa tədbir keçirmək, şüar səsləndirmək istəyirsə, bunun üçün başqa yerlər seçməlidir. Əlamətdar günlər, ümumxalq hüznləri siyasi arena rolunu oynaya bilməz. Onda eyni məntiqlə Mari Lipen də deyə bilərdi ki, Jak Şirak həm də bütün Fransanın prezidenti olub və yasa gələrdi. Görürsünüz ki, çox böyük anlayışla mərhumun ailəsinin istəyini qəbul edib. Bu cür hadisələri örnək kimi bizimkilərə göstərmək lazımdır".

***Məhəmmədəli QƏRİBLİ***

# Əli Kərimliyə qarşı "tərəfdarlar üsyanı" bütün ölkə boyu rezonans doğurub...

**Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) Nəzarət-Təftiş Komissiyasının (NTK) sədri Aydın Əliyev partiya üzvlərinə müraciət edib. O, öz "Facebook" profili vasitəsilə canlı yayıma çıxıb. Canlı yayım zamanı Aydın Əliyev Əli Kərimlini istefaya çağırıb.**



NTK sədri müraciətində bəyan edib ki, yüzlərlə cəbhəçi Əli Kərimli tərəfindən aldadılıb:

"2015-ci ildə AXCP-nin qurultayında partiyanın Nəzarət-Təftiş Komissiyasının üzvü, daha sonra sədri seçilmişəm. Sonradan bilmişəm ki, mənim kimi obyektiv, düz danışan, prinsipial adamın bu vəzifəyə seçilməsi Əli Kərimlinin ürəyincə olmayıb. Partiyadaxili maliyyə, xaricdən gələn qrant və s. pul məsələlərini ancaq öz nəzarətində saxlayan, özünün, ailəsinin, xaricdə yaşayan oğlunun ərəb şeyxlərinin övladı kimi yaşamasına sərf edən Əli Kərimlini mənim kimi əqidəli, düzgün adam qane etməyib".

Aydən Əliyev bildirib ki, Əli Kərimli partiyada çox sərt diktatura rejimi qurub: "30 illik siyasi fəaliyyətdən sonra başa düşmüşəm ki, mən və mənim kimi yüzlərlə cəbhəçi Əli Kərimli tərəfindən aldadılıb. O bizim hər birimizdən öz şəxsi mənafeyi üçün istifadə edib. Sözdə demokratiya uğrunda mübarizə aparıldığını desə də, əslində, partiyada çox sərt diktatura rejimi qurub. Fərqli düşünənləri, onun antidemokratik hərəkətlərinə etiraz edənləri ən çirkin üsullarla ləkələyib, böhtanlara məruz qoyub, partiyadan uzaqlaşdırıb.

Əli Kərimli siyasi dələduz olaraq bizi və xalqımızı illərdir aldadır. Bu gün də gənclərimizi aldadaraq özünün çirkin əməllərinə qurban vermək istəyir. Cəbhəçilərin çoxu Əli Kərimlinin antidemokratik, qanunsuz, partiyanın nizamnamə və məramnaməsinə zidd əməllərindən xəbərdardır. Lakin bunu dilə gətirməkdən çəkinirlər".

A.Əliyev qeyd edib ki, Əli Kərimli və onun əlaltıları partiyada hamını öz çirkin oyunlarının qurbanına çevirib: "Məni ləkələyib, siyasi mübarizədən uzaqlaşdırmağa, istefa verməyə məcbur etmək istəyirlər. Ancaq mən istefa verməyəcəm. Partiyamızda olan yüzlərlə əqidəli, xalqını sevən cəbhədaşlarımla birlikdə Əli Kərimlinin partiyamızda yaratdığı diktatura rejiminə, çirkin oyunlarına qarşı mübarizə aparacağıq. Bütün xəyanətkar əməllərini ifşa edəcəyik. Çalışacağıq ki, partiyamızın bütün üzvləri, xalqımız Əli Kərimlinin iç üzünü tanısınlar. Onun, əslində, xalqımıza qarşı hansı xəyanətlərə yol verməsindən xəbərdar olsunlar".

NTK sədri Əli Kərimlini illər ərzində apardığı çirkin və xəyanətkar oyunlara son qoymağa çağırıb: "Yetər. Partiyada yaratdığın diktaturaya son qoy. Əgər cəsarətin və mənliyin çatırsa, istefa ver. Qoy partiyanın üzvləri özlərinə gənc, savadlı, xalqını sevən, bacarıqlı rəhbər seçsinlər. Partiyamızı çirkin oyunlara təhrik etməkdən, Azərbaycanı fəlakətə aparan əməllərindən əl çək".

Partiya üzvlərinə müraciət edən A.Əliyev ona qarşı böhtan kampaniyasına başlanacağının anonsunu verib: "Bilirəm ki, bu müraciətimdən sonra Əli Kərimlinin göstərişi ilə onun əlaltıları mənə qarşı böhtan, şər kampaniyasına başlayacaqlar. Ancaq bütün bunlara əhəmiyyət verməyərək qabaqcadan həmin şəxslərə səslənirəm ki, mənim barəmdə danışarkən haqq və ədalət hissini unutmasınlar. Bir gün onlar da Əli Kərimlinin çirkin oyunlarının qurbanı olduqlarını başa düşəcəklər".

Hər halda, partiya bu səsin həqiqi AXCP üzvü olduğunu danmayacaq. Çünki biz bütün mitinq və tədbirlərdə müraciət edən şəxsi AXCP-nin ön sıralarında görmüşük. Ən maraqlısı isə budur ki, bu cür sərt bəyanat verən şəxs partiyadan istefa verdiyini demir. Bu müraciətdən sonra AXCP daxilindəki proseslər necə cərəyan edə bilər?

AXCP adına iddialı olan digər qanadın funksioneri Rəfail Becanov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bəyanatı verən şəxs ömrünü mübarizəyə həsr etmiş adamdır: "Partiyanın ən ağır bir postunu tutur. NTK yalnız qurultayda formalaşdırılır. Yəni sözügedən şəxs bütün qurum tərəfdarlarının səsini almış adamdır. Onun səsləndirdiyi ittihamlar indiyə kimi də deyilib. Yalnız opponentlər tərəfindən deyil, partiyanın içindən də səslənib. Ancaq həmin adamların son aqibəti bəllidir. Səsini çıxaranı təşkilatdan uzaqlaşdırıblar. Adam həqiqətən avtoritar idarəetməyə meyllidir, onun xisləti budur. Kimisə dinləməyi xoşlamır, yalnız əmr vermək istəyir. Bu çıxış bir daha göstərdi ki, oradakı vəziyyət doğrudan da acınacaqlıdır. Adam illərlə gördüyü problemləri axır ki, dilə gətirmək məcburiyyətində qaldı. Göründüyü kimi, partiyanın NTK rəhbəri kimi o, bütün proseslərdən təcrid edilib. Təşkilatın maliyyə durumu ilə bağlı isə ona heç bir məlumat verməyiblər. Bir daha sübut olunur ki, orada siyasi fəaliyyətdən tutmuş, maliyyə məsələlərinə qədər nəsə şəffaf deyil. Təşkilatdan heç kim istefa verməyib. Sadəcə, Əli Kərimliyə söz deyəni oradan çıxarıblar. Yəqin ki, bu şəxs barəsində də həmin addımı atacaqlar. Əli Kərimli yalnız AXCP adı ilə manipulyasiya edir. Ona kiminsə uzaqlaşmağı o qədər də önəmli deyil. Biz bundan sonra da belə problemləri görəcəyik. Əli Kərimlinin ifşa olunması davamlı proses olacaq".

***Məhəmmədəli QƏRİBLİ***

# Zamirə Hacıyevanın xaricdə söyüş müxalifətinə maliyyə dəstəyi və Britaniya hökumətinin şübhə doğuran mövqeyi...

**Məlum olduğu kimi, Londonda Azərbaycan Beynəlxalq Bankının keçmiş rəhbəri Cahangir Hacıyevin həyat yoldaşı Zamirə Hacıyevanın Azərbaycana ekstradisiyası ilə bağlı məhkəmə prosesi keçirilib. İclasda Vestminster şəhər məhkəməsi qərarını açıqlayıb. İngiltərə KİV-i xəbər verir ki, məhkəmə Z.Hacıyevanın Azərbaycana ekstradisiya olunmaması barədə qərar çıxarıb.**



## *Yeganə Hacıyeva: "Azərbaycan hakimiyyəti bu yeni faktı da təqdim etməklə, Hacıyeva ilə bağlı yeni istiqamətdə araşdırmanın başlanmasına nail ola bilər"*

Azərbaycan hökumətini təmsil edən vəkil məhkəmənin qərarından apelyasiya şikayəti verəcəklərini bildirib. Hacıyevanın vəkili isə qərarı şərh etməkdən imtina edib.

Bizim söhbət etdiyimiz hüquqşünaslar bildiriblər ki, bunun Zamirə Hacıyevanın ittiham olunduğu cinayət əməlinə heç bir aidiyyəti yoxdur. Sadəcə, ekstradisiya olunmamaqla bağlı qərarın çıxarılması Zamirə Hacıyevanın guya Azərbaycan hakimiyyəti tərəfindən təqib olunması ilə bağlı verdiyi izahatla əlaqəli ola bilər.

Bu arada, Zamirə Hacıyeva ilə bağlı başqa bir maraqlı məlumat yayılıb. "Space" TV-nin "Sadə Həqiqətlər" verilişinin qonağı olan millət vəkili, YAP İcra katibinin müavini Siyavuş Novruzov xaricdən ölkəmizə qarşı söyüş kampaniyası aparanlar və ölkə daxilindən onlara məlumat və maliyyə ötürənlər haqda sualı cavablandırarkən ABB-nin keçmiş rəhbəri Cahangir Hacıyevin xanımı Zamirə Hacıyevanı nəzərdə tutaraq deyib ki, bu şəxslər törətdikləri əməli yaddan çıxarmaqdan ötrü həmin insanlara (xaricdən Azərbaycana qarşı kampaniya aparanlara - red.) dəstək göstərirlər: "Məsələn, Böyük Britaniyada bir qadın var - mən heç kəsin ailə məsələsinə qarışmıram və toxunmuram, ancaq bu fərqli məsələdir, ordan diqqəti yayındırmaqdan ötrü bir neçə televiziya yaratdılar və Beynəlxalq Bankdan oğurlanan pullardan həmin şəxslərə verirlər. Bu cür hallar var".

Hər halda bu faktın özü kifayət edir ki, Azərbaycan hakimiyyəti Zamirə Hacıyeva ilə bağlı Böyük Britaniya hakimiyyəti qarşısında məsələ qaldırsın. Zamirə Hacıyeva ilə bağlı ortaya çıxan daha bir ciddi faktla bağlı Azərbaycan rəsmi qaydada Böyük Britaniyaya müraciət etməlidirmi?

Beynəlxalq məsələlər üzrə ekspert Yeganə Hacıyeva baki-xeber.com-a açıqlamasında bildirdi ki, bununla bağlı mütləq müraciət edilməlidir: "Çünki ortada hələ ki, KİV-də səslənən iddia var. Bunun hüquqi perspektivinin olması üçün rəsmi müraciət lazımdır. Hər halda, buna dair faktlar olmasa, belə fikri hakim partiya funksioneri səsləndirməz. Bəllidir ki, xaricdən Azərbaycana qarşı istifadə olunan həmin media resurslarında Azərbaycanın dövlət müstəqilliyinə həqarət var. Hətta terrora, hakimiyyətə qarşı itaətsizliyə dair açıq çağırılar var. Bunlar da ağır cinayət sayılır. Bu cür əməllərin maliyyələşdirilməsi də hüquqi məsuliyyət yaradır. Zamirə Hacıyeva ilə bağlı ortaya elə faktlar çıxıb ki, Böyük Britaniya kimi ölkə tarixdə ilk dəfə belə mövzu ilə üz-üzədir. Söhbət külli miqdarda çirkli pulun yuyulmasından gedir. Hər halda Britaniya məhkəməsi həm də həmin pulların hansı vasitələrlə leqallaşdırılması, necə xərcləndiyini də araşdırır. Düşünürəm ki, Azərbaycan hakimiyyəti bu yeni faktı da təqdim etməklə, Hacıyeva ilə bağlı yeni istiqamətdə araşdırmanın başlanmasına nail ola bilər. Olduqca ciddi mövzudur, mütləq müraciət olunmalıdır. Görək bu faktların qarşısında Britaniya məhkəməsi hansı qərarı verəcək?"

***Məhəmmədəli QƏRİBLİ***

**ABŞ** Prezidenti Donald Trampın vəkili, Nyu-York şəhərinin keçmiş meri Rudolf Culiani İrəvana gələn həftə planlaşdırılan səfərini ləğv edib.

# Trampın vəkilinin İrəvan səfərindən imtinasının arxasında anti-Ermənistan siyasi motivlər...



Keçmiş mer "Avrasiya kontinentinin tranzit potensialı" konfransına qatılmalı idi. Amma həmin konfransda Rusiya Prezidenti Vladimir Putin və İran Prezidenti Həsən Ruhaninin olacağını bildikdən sonra səfər proqramını ləğv etdiyini deyib: "Putinin orada olacağını bilmirdim. Yoxsa öncədən bu konfransda iştirakdan imtina edərdim".

Beləliklə, İrəvan konfransına gələcək yeganə amerikalı dövlət rəsmisi də bundan vaz keçib. Erməni nəşrləri Baş nazir Nikol Paşinyanın Moskva-Vaşinqton gərginliyi fonunda çətin durumа düşdüyünü və konfransın nüfuzunun bundan zərər gördüyünü yazırlar. Bu hadisəni Ermənistanın ABŞ siyasətinin fiaskoya uğradığının daha bir bariz nümunəsi saymaq olarmı?

## *Yeganə Hacıyeva: "Bütün bunlar yeni erməni hökumətinin ABŞ siyasətinin tam fiaskoya uğradığına bir sübutdur"*

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Paşinyan hökumətilə ABŞ administrasiyası arasında bir anlaşılmazlıq var: "Bu anlaşılmazlıq heç də Paşinyanın şəxsiyyətindən doğmur, Ermənistanın yürütdüyü xarici siyasət kursu ilə bağlıdır. Orada çox açıq suallar var. Çünki Paşinyan hələ də öz xarici siyasət vektorlarını bəlli etməyib. Bu, narahatedici məqamdır. Xatırlayırsınızsa Paşinyanın ABŞ-a son səfəri zamanı da bunlar ortaya çıxdı. ABŞ-dakı erməni lobbisi onunla ABŞ-da bir sərhədləri də müəyyən etməyə çalışdı. Çünki ABŞ strateqləri Paşinyanın ABŞ-ın ümumi maraqlarına necə ziyan vurduğunu yazırlar. Artıq bu sual müstəqil analitiklərlə yanaşı, həm də ABŞ rəsmilərini narahat etməyə başlayıb. Bu siyasət özünü ABŞ-da tam büruzə verməyə başlayıb. Son səfəri zamanı ermənilərin ən sıx yaşadığı Kaliforniya ştatında onun görüşünə cəmi 30 nəfər gəlmişdi. Bütün bunlar yeni erməni hökumətinin ABŞ siyasətinin tam fiaskoya uğradığına bir sübutdur. Artıq bu siyasət ABŞ-dakı erməni lobbisinin də münasibətində özünü göstərir. ABŞ-ı qane etməyən Ermənistanın tam şəkildə Rusiyaya vassallıq etməsidir. Suriya məsələsində Rusiya ilə əlbir olub ora hərbi kontingent göndərməsidir. Baxmayaraq ki, ABŞ bu məsələyə tamamilə etiraz edirdi. Bundan əlavə, Ermənistan ABŞ sanksiyalarına fikir vermədən İranla çox sıx əməkdaşlıq edir. Bir növ, həmin ölkənin ABŞ blokadasından çıxarılmasına yardımçı olur. Bütün bunlar tam söyləməyə əsas verir ki, hazırda ABŞ-Ermənistan münasibətləri özünün ən pis dönəmini yaşayır. Trampın vəkilinin də səfərini təxirə salması bu amillərlə bağlıdır. Putinin Ermənistanda olması ilə bağlı səslənənlər ciddi arqument sayıla bilməz. Çünki Culiyani ilə Putin müxtəlif ranqlı adamlardır. Onların eyni anda hansısa ölkədə olması bir-birinə maneçilik yarada bilməz. Bütün istiqamətlər üzrə baxdıqda məlum olur ki, ABŞ-Ermənistan münasibətləri daha da pisləşməyə doğru gedir. Trampın vəkilinin nümayişkaranə şəkildə Ermənistandan imtina etməsi bu ziddiyyətin artıq fərdlərə də sıçradığından xəbər verir".

> *"Trampın vəkilinin də səfərini təxirə salması bu amillərlə bağlıdır"*

***Məhəmmədəli QƏRİBLİ***

---

**M**əlum olduğu kimi, ABŞ Prezidenti Donald Trampa qarşı impiçment kampaniyası başlayıb. Trampın ukraynalı həmkarı Vladimir Zelenski ilə telefon danışığı zamanı ona hansısa məxfi informasiyaları verdiyinə dair xəbər yayılıb. Bundan sonra Ağ Ev həmin danışığın stenoqramını açıqladı və qalmaqal daha da böyüdü.

# Trampın impiçmenti və Zelenskinin sonrakı taleyi - Ukrayna daxilində nələr baş verəcək...



Qeyd edək ki, sentyabrın 19-da "The Washington Post" qəzeti ABŞ hərbi kəşfiyyatının bir əməkdaşının rəhbərliyə şikayət edərək, Prezident Donald Trampın xarici dövlət başçılarından biri ilə ehtiyatsız şəkildə danışaraq ona hansısa söz verdiyini bildirib. ABŞ mediası həmin əcnəbi rəhbərin Ukrayna Prezidenti Vladimir Zelenski olduğunu üzə çıxarıb. Sentyabrın 22-də isə Co Bayden bununla bağlı təhqiqat başlanmasını tələb edib.

Mətbuatın iddialarına görə, iyulun 25-də Tramp Zelenskiyə zəng edərək onunla danışıb. İddialara görə, bu telefon danışığı zamanı Tramp Zelenskidən Bayden ailəsinin Ukraynadakı əlaqələrinin araşdırılmasını istəyib. Bu zaman Ukrayna Prezidentini təhdid edərək, ABŞ-ın Ukraynaya ayıracağı 250 milyonu hərbi yardım olmaqla, ümumilikdə, 400 milyon dollar dəyərində yardımı kəsə biləcəyini deyib.

Bununla belə, Trampın Zelenski ilə söhbətinin mətninin Ukraynanı necə bir çətin vəziyyətə saldığı da ortadadır. Məsələn, telefon danışığı zamanı Zelenski ABŞ Prezidentinə köhnə səfiri dəyişdiyi üçün təşəkkür edib: "O, məni yeni prezident kimi tam qəbul etmirdi".

Daha sonra telefon danışığında Tramp Almaniyanın Ukrayna üçün heç nə eləmədiyini söyləyəndə Zelenski onun sözünə qüvvət verərək, Fransanı da bura əlavə edir. Halbuki, reallıqda Zelenski Merkel və Makronla daha çox təmasda olur və onlardan heç də az dəstək görmür. Trampla danışanda isə məlum olur ki, Ukraynanın bircə dostu varsa, o da ABŞ-dır. Həmçinin, telefon danışığında Zelenski Trampın onların ağsaqqalı olduğunu deyib.

Bütün bu deyilənlərlə yanaşı, Trampın impiçment məsələsi Ukraynanın daxilindəki siyasi proseslərə necə təsir edəcək? Zelenskinin sonrakı siyasi karyerası üçün nə vəd edir?

## *Fikrət Sadıqov: "Düzdür, Ukraynada Zelenskinin rəqibləri daha da fəallaşacaq, amma..."*

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, Ukrayna Prezidenti Zelenski üçün bundan sonra bir qədər çətin olacaq: "Düzdür, ümumən hər iki prezidentin siyasi karyerasına sözügedən telefon danışıqları təsir edə bilər. Artıq ABŞ-da Trampla bağlı impiçment prosesi başlayıb. Konqresdə demokratlar qəti şəkildə bildirdilər ki, impiçment üçün komissiya yaranmalıdır və Tramp məsuliyyətə cəlb olunmalıdır. Çünki o, digər dövlətə seçkilərlə bağlı təzyiq göstərir. Hesab edirəm ki, gedən proseslərlə əlaqədar Zelenski də mürəkkəb vəziyyətlə üzləşə bilər. Çünki Ukrayna Ali Radasının bir sıra deputatları ona irad tutur ki, belə bir danışıqlar aparırsansa və bunun əvəzinə ABŞ Prezidentinə nəsə təklif edirsənsə, deməli, Ukrayna maraqlarına zərbə vurursan. Bütün bunlara baxmayaraq, düşünmürəm ki, Zelenskinin vəziyyəti daha mürəkkəb olsun. Ona görə ki, o, yeni seçilmiş dövlət başçısıdır. Onun o qədər də ciddi səhvi müşahidə edilmir. O, sadəcə olaraq, telefon danışığında Trampın suallarına cavab verir. Bununla belə, Trampın bəzi iradlarına müəyyən şərh verib. Zelenski qəti şəkildə telefon danışığında deməd mən filan şeyi edərəm və məsələ siz deyən kimi olacaq. Düzdür, Ukraynada Zelenskinin rəqibləri daha da fəallaşacaq, amma bunun ölkədə daxili vəziyyətin kəskinləşməsinə gətirib çıxaracağı real görünmür. Bu, Zelenskinin impiçmentinə gətirib çıxarmayacaq".

> *"Onun o qədər də ciddi səhvi müşahidə edilmir"*

***Vidadi ORDAHALLI***

**Məlum olduğu kimi, Ermənistanın böyük qızıl mədənlərindən biri olan Amulsar ətrafında gərginlik səngimək bilmir. Qızıl mədənindən istifadənin ağır ekoloji nəticələrə gətirib çıxaracağı hazırda Ermənistanda böyük qalmaqala səbəb olub. O dərəcədə ki, bu məsələ hətta Paşinyan iqtidarının sarsılmasına gətirib çıxara bilər.**

# Paşinyan Amulsar barədə siyasi qərarın məsuliyyətini parlamentin üzərinə yönəldir...

## *Əli Orucov: "Paşinyan risqlərdən qorxduğu üçün, Amulsarla bağlı məsuliyyəti parlamentin üzərinə qoymaq istəyir"*

### *"Ancaq məsələyə haradan baxsaq, bu, uğursuz siyasi gedişdir"*

Düzdür, Paşinyan qızıl mədəninin istismarına çalışır, lakin ekoloqların, yerli əhalinin güclü müqaviməti ilə qarşılaşıb. Ekoloqlar Cermuk, Arpaçay, Varatan, Sevan gölünə böyük zərər dəyə biləcəyi haqda xəbərdarlıq edirlər.

Avqust ayının ortalarında Ermənistanın İstintaq Komitəsi qızıl mədəninin istismarının ekologiyaya zərər verməyəcəyi barədə araşdırma dərc etdi. Lakin mədənin istismarının əleyhdarları iddia edirlər ki, İstintaq Komitəsi ərazini deyil, müvafiq sənədləri öyrənib və onların əsasında nəticə əldə edib. Bir saatdan artıq müddətdə canlı yayımda ictimaiyyətə müraciət edən Paşinyan qızıl mədəninin müasir ekoloji standartlara uyğun istismar ediləcəyini bildirib. Ancaq yaxınlıqda yaşayan yerli əhali və ekoloji təşkilatlar qətiyyətlə buna qarşı çıxırlar. Qızılın istismarı zamanı hər il 100 ton sodium-sianid turşusunda istifadə olunacağı onları narahat edir.

Görünən odur ki, Ermənistan hakimiyyəti üçün baş bəlasına çevrilən Amulsar məsələsində Paşinyan qərar qəbul edə bilmir. Sözügedən məsələ ilə bağlı Ermənistan parlamentində dağ-mədən sənayesi üzrə istintaq komissiya yaradılıb. Diqqətçəkən məqam odur ki, bununla Paşinyan Amulsar barədə siyasi qərarın məsuliyyətini parlamentin üzərinə yönəltmək istəyir. Özü Baş nazir olaraq bunun məsuliyyətinin altına girmək istəmir. O üzdən, Paşinyan növbəti siyasi oyun oynamaqdadır.

Maraqlıdır, ekspertlər Paşinyanın bu siyasətini, daha konkret desək, Amulsarla bağlı gedişini necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, Paşinyan bununla uğursuz siyasi gediş edir. O bunu bir sıra arqumentlərlə əsaslandırdı: "Məlum olduğu kimi, avqust ayında Paşinyan əhalinin etimadına güvənərək, qızıl yatağı hesab olunan Amulsar mədəninin istismarına icazə verib. Lakin son dövrlər Ermənistanda Amulsar yatağının istismarı ətrafında baş verən hadisələr erməni baş nazirini çıxılmaz vəziyyətə salıb. Məlumat üçün bildirim ki, Amulsar qızıl yatağı Vayots Dzor merliyinin kurort zonası olan Cermuk şəhərinin yaxınlığındadır. Ümumiyyətlə,



bu zona Ermənistan turizminə ən çox maliyyə gətirən və ekoloji cəhətdən cəlbedici bölgələrdən biridir. Əhali ehtiyat edir ki, qızıl mədəninin istismara verilməsi ekoloji fəlakət yarada bilər. İnsanların bu etirazından məharətlə istifadə edən Paşinyanın rəqibləri onu küncə sıxışdırmağa nail olublar. Çünki beynəlxalq investorlar qarşısında geri çəkilmə xarici maliyyəni də çəkindirir və Ermənistanı etibarsız bir ölkəyə çevirir. Onsuz da Ermənistanın investorlar üçün qeyri-cəzbedici imici daha da korlanar. Problem o qədər şişib ki, hətta beynəlxalq erməni diasporu da bu etibarın itirilməsindən narahatlığını bildirərək, N.Paşinyanı xəbərdar edib.

N.Paşinyanın öz tərəfdarları ilə hətta sərt tonda danışması, onları hədələməsi də işə yaramayıb. Çünki onun parlamentdə olan silahdaşları da xalqın qəzəbindən qorxaraq ona dəstək göstərməkdən çəkinirlər. Ermənistan Baş naziri, belə demək mümkünsə, iki od arasında qalıb, ya xarici investorla bağlanmış müqaviləyə uyğun olaraq, Amulsar yatağının istismarına qoyulan məhdudiyyəti aradan qaldırmaq, ya da Ermənistan ictimaiyyətinin etirazlarını yatırmaq. Hər ikisə də Baş nazir üçün böyük risqlər tələb edir. Paşinyan risqlərdən qorxduğu üçün, Amulsarla bağlı məsuliyyəti parlamentin üzərinə qoymaq istəyir. Ancaq məsələyə haradan baxsaq, bu, uğursuz siyasi gedişdir. O baxımdan, parlamentdə bununla bağlı hansısa komissiyanın yaradılması Paşinyanı xilas edə bilməyəcək".

***Vidadi ORDAHALLI***

**Ermənistanın İsraildə səfirlik açmaq qərarı narazılığa səbəb olub. Belə ki, Ermənistan hakimiyyətinin məlum qərarı Yaxın Şərqdəki erməni icmalarında ciddi narazılıq yaradıb. Bu barədə Ermənistanın məşur "Jamanak" qəzeti yazıb.**

# Ermənistanın İsraildə səfirlik açmasına qarşı ərəb dünyası erməniləri ayağa qalxıb - erməni diasporunun yeni çatı...

## *Məhəmməd Əsədullazadə: "Hesab edirəm ki, ərəb ölkələrində ermənilər bu qərardan sonra siyasi diskriminasiyaya məruz qala bilər"*



Sözügedən məsələ ilə bağlı qeyd olunub ki, xüsusilə, Livan və Suriya kimi ölkələrdə, həmçinin İsrailə faktiki müharibə şəraitində olan İran kimi ölkələrdə narazılıq daha yüksəkdir: "Həmin ölkələrin erməni icmaları İsrail ilə diplomatik münasibətlərin qurulmasının bu ölkələrin hakimiyyət orqanlarının erməni icmalarına müsbət münasibətini dəyişdirə biləcəyindən narahatdırlar. İndi yerli erməni partiyaları və icma təşkilatları yeni reallığa necə reaksiya verəcəklərinə dair görüşlər keçirirlər".

O da məlumdur ki, erməni lobbisi bəzi Yaxın Şərq ölkələrində çox yaxşı təşkilatlanıb. Hətta bir sıra erməni terrorçuları Livan və Suriyadakı düşərgələrdə təlim keçərək İsrailə qarşı vuruşublar. Bütövlükdə Ermənistan neçə illərdir Yaxın Şərq ölkələri ilə çoxşaxəli əlaqələrə və ənənəvi münasibətlərə malikdir. Sözügedən ölkələr də onlara yaxın olan dövlətlərin İsraillə hər hansı formada əlaqələr qurmasına, yaxınlaşmasına həssas yanaşırlar. Bu baxımdan maraqlıdır, məlum qərar bu münasibətlərdə indiyədək olan yaxınlığa nə dərəcədə mənfi təsir göstərə bilər?

Sözügedən məsələni baki-xeber.com-a şərh edən politoloq Məhəmməd Əsədullazadə buna bir neçə kontekstdən yanaşdı. Onun fikrincə, məlum qərardan sonra ərəb ölkələrində ermənilər siyasi diskriminasiyaya məruz qala bilər: "Ermənistanın İsraildə səfirlik açmasına qarşı ərəb ölkələrində olan erməni icmalarının narazılığı təbii ki, rəsmi İrəvan tərəfindən ciddi qəbul edilməyəcək. Çünki İrəvan çalışır ki, İsrail-Azərbaycan hərbi-texniki əməkdaşlığına zərbə vursun. Bununla bağlı Ermənistan hakimiyyəti bir sıra səylər göstərir. Ona görə də Paşinyan hakimiyyəti ciddi cəhdlə buna getmək istəyir. Hesab edirəm ki, ərəb ölkələrində ermənilər bu qərardan sonra siyasi diskriminasiyaya məruz qala bilər. Onların bu yöndə narahatçılığı gözlənilən idi. Nəzərə almaq lazımdır ki, Yaxın Şərq çox həssas bir regiondur. Ona görə də erməni icması çalışacaq ki, Paşinyanın bu qərarına maksimum təsir etsin. Göründüyü kimi, Ermənistanı idarə edənlər bu gün praqmatik deyil, populizmlə ölkəni idarə edirlər. Bunun da nəticəsində ölkə xarici siyasətdə problemlərlə üzləşir. Qeyd edim ki, İsraildə səfirlik açmaq heç də iki ölkə arasında sıx siyasi münasibətlərin inkişafına gətirib çıxarmayacaq. Bundan əlavə, ərəb ölkələri Ermənistanla olan əlaqələri aşağı səviyyəyə endirə bilər".

### *"Ona görə də erməni icması çalışacaq ki, Paşinyanın bu qərarına maksimum təsir etsin"*

***Vidadi ORDAHALLI***

**Ölkənin maliyyə sektiorunda uzun müddətdir narazılıq predmetinə çevrilən məsələlərdən biri də lombard kreditləri ilə bağlıdır. Belə kreditləri ayrı-ayrı şəxslərin malik olduğu təşkilatlarla yanaşı, banklar da verir. Amma lombard kreditləri ilə bağlı ciddi problemlərin olması da heç kimə sirr deyil.**

# Azərbaycanda lombard probleminin sonu çatır, yoxsa...

Məsələn, banklar borca ehtiyacı olan müştərilərə kreditləri daha çox lombardlar vasitəsilə, onların zinət əşyalarını iki dəfə ucuz qiymətə girov götürməklə, ən azı iki dəfə baha faizlə təklif edirlər. Bununla da bank bir tərəfdən özü üçün təminatsız kredit problemini həll etmiş olur, digər tərəfdən isə qazancını xeyli artırır. Nəticə etibarilə, problemini həll etməyin yolunu yalnız zinət əşyalarını girov qoymaqla lombardlardan kredit götürməkdə görən insanlar lombardların vasitəsilə bankların girovuna çevrilirlər.

Sadəcə lombard kimi fəaliyyət göstərən bir sıra qurumlarda da eyni problem hökm sürür. Hətta onların bəziləri girov kimi götürdükləri əşyalarla bərabər yoxa da çıxır. Lombard fəaliyyəti ilə məşğul olan hüquqi şəxslər mənfəət vergisinin, fiziki şəxslər isə gəlir vergisinin ödəyiciləridir. Ancaq qanundakı boşluq onların bu vergidən də asanlıqla yayınmasına imkan verir. Belə ki, lombarda girov qoyaraq alınan kredit məbləği müəyyənləşdirilmiş müddətdə qaytarılmadıqda, həmin əşyalar lombardın mülkiyyətinə keçir. Bu məsələ ciddi narahatlıq predmetinə çevrildiyindən. onun həlli istiqamətində qanunverici orqanda artıq müvafiq addımlar atılması qərarına gəlinib. Belə ki, "Lombardlar haqqında" qanun hazırlanır və məsələ qanunverici orqanda müzakirə olunur. Burada daha bir məqam isə lombard kreditlərinin verilmə müddətinin artırılması və onun da iqtisadiyyata yönləndirilə bilinməsidir. Qeyd edək ki, "Lombardlar haqqında" qanun layihəsinin 10-cu maddəsində qeyd edilib ki, lombardlar tərəfindən kreditlər Azərbaycan milli valyutasında on iki aydan artıq olmayan müddətə verilir. Amma sənəddə lombard kreditinin miqdarı öz əksini tapmayıb. Qanun layihəsinin müzakirəsi zamanı deputatlar lombardlar tərəfindən kreditlərin 1 il müddətinə verilməsinə etiraz edib, bu müddətin artırılmasını təklif ediblər. Xatırladaq ki, Milli Məclisdə "Lombardlar haqqında" qanun layihəsinə ikinci oxunuşda baxılır.

İndilikdə isə Azərbaycanda lombard kreditlərinin verilmə müddətinin artırılması təklif edilir. Ekspertlər də lombard kreditlərinin verilmə müddətinin artırılmasını vacib sayır. Çünki bir il ərzində verilən kreditlər real iqtisadiyyatda, real sektorda, istehsalatda, kənd təsərrüfatında kreditləşməyə, investisiyalara səbəb olmur. Eləcə də 1 il müddətinə verilən kreditlər əksər hallarda ya istehlak kreditləri, yaxud da əməliyyatlarla bağlı olur. O da faktdır ki, 1 il ərzində hansısa biznes layihəsini tam şəkildə reallaşdırmaq mümkün deyil. Ona görə də hesab olunur ki, lombard kreditlərinin verilmə müddəti artırılmalıdır. Bank və maliyyə məsələləri üzrə ekspert Əkrəm Həsənov da bildirir ki, ümumiyyətlə, burada kreditlərin verilmə müddətinin qoyulması düzgün deyil: "Qanunvericilikdə hər bir məhdudiyyətin mənası olmalıdır və burada məhdudlaşma ilə nə əldə edilir? Heç nə əldə edilmir. Bəlkə vətəndaşa kredit 2 il müddətinə lazımdır? Lombard kreditlərinin verilmə müddəti nəinki artırılmalıdır, ümumiyyətlə, müddət ləğv edilməlidir. Onda bankların da verdiyi kreditlərə müddət qoymalıyıq? Tərəflər özləri bunu müəyyən etməlidir". O bildirib ki, sənəddə kreditin maksimum miqdarı göstərilməməlidir: "Lombard krediti girovla təmin edilirsə, burada məhdudiyyətin qoyulmasına ehtiyac yoxdur".



Digər tərəfdən ona da diqqət çəkilir ki, lombard kreditlərində faizlər yumşalmalıdır. İlk növbədə, girov qismində təqdim olunan əmlakın aşağı məbləğdə qiymətləndirilməsini başlıca qüsur kimi qeyd etmək mümkündür. Vətəndaşlar kredit əldə etmək üçün sahib olduqları zinət əşyalarını girov qismində təqdim edirlər. Bu zaman girov əmlakının qiymətləndirilməsi ilə bu məsələdə maraqlı tərəf qismində çıxış edən lombard müəssisəsi məşğul olur. Belə bir vəziyyətdə zinət əşyaları çox aşağı dəyərlə qəbul edilir ki, bu da onun real dəyərindən xeyli aşağı olur. Bununla yanaşı, bəzən vətəndaşların hüquqlarının pozulması hallarına da rast gəlinir. Eyni zamanda, lombard kreditləri üzrə faiz dərəcələrini vaxtlı-vaxtında ödəmək olduqca çətin prosesdir.

Bundan əlavə, lombardlarla bağlı problemlər sırasında ən vacib məsələ sığorta məsələsidir. Girov qoyulan əşyaları lombard sahibi sığorta etməlidir.

**Bu zaman vətəndaşların lombardlara güvəni çoxalacaq. Vətəndaş biləcək ki, sabah baş verən hər hansı hadisə nəticəsində lombard müflis olarsa, bağlanarsa, hətta yoxa çıxarsa belə, əmlakını sığorta şirkətindən ala bilər. Girovun qiymətləndirilməsində də müəyyən mübahisələr var. Əslində həmin əşyalar bazar qiymətinə münasib qiymətləndirilməlidir. Amma əksər hallarda lombardlar əmlakı 30-40 faiz aşağı qiymətləndirir. Yeni qanunvericiliklə bu məsələnin də həllini tapması gözlənilir. Qanun praktikada işləməsə, lombardlarla bağlı problemin həlli çox uzanacaq.**

***Tahir TAĞIYEV***

# Paşinyana yeni ittihamlar - ölkə qanunlarla yox, qərbyönlü QHT-in nizamnamələri ilə idarə olunur, diasporu parçalayır...

## BMT-də saqqal yelləməyə 300 min dollar...

**Ermənistanda mövcud hakimiyyətin yaratdığı daxili qarşıdurmanın sonunun necə olacağı indi xüsusi müzakirə predmetidir. Belə hesab olunur ki, Ermənistan daxilində yaşanan qarşıdurma, xarici siyasətdə yol verilən qüsurlar tezəliklə baş nazir Nikol Paşinyanın hakimiyyətinə son qoyacaq.**

Bunu xüsusi olaraq vurğulayan erməni ekspert Stepan Danielyan qeyd edir: "Nikol istəsə də, istəməsə də istefa verməlidir və verəcək. Gec-tez dərin destruktiv proseslər başlayacaq".

O bildirib ki, Paşinyan destruktiv şəxsdir və cəmiyyəti konsolidasiya etmək üçün öz şansından istifadə etmədi: "O məhkumdur. Bu o demək deyil ki, Ermənistanda hakimiyyət dəyişikliyi olmalıdır. Hakimiyyət baş nazirə yox, parlamentə məxsusdur və yeni hökumət yaratmaq hakimiyyət dəyişikliyi demək deyil. Bu, parlament idarə üsuluna malik olan ölkələr üçün normal bir şeydir". Danielyan Paşinyanın beynəlxalq platformalarda da anlaşılmaz olduğunu vurğulayıb: "Paşinyan beynəlxalq tərəfdaşlar üçün nizamsız, birincisi ikincisindən fərqlənməyən şəxsin hörmətini qazanıb, o cümlədən öz qərarlarında elementar və uyğunsuzdur. Bizə konstruktiv davranışa sahib olan, cəmiyyətin müxtəlif təbəqələri ilə dialoqa girən, etibarlı, proqnozlaşdırıla bilən, öz sözlərində və fəaliyyətlərində təmkinli olacaq şəxs lazımdır".

Nüfuzlu beynəlxalq mətbu orqanların da yazdıqlarından belə bəlli olur ki, Paşinyanın artıq hakimiyyətdə qalmaq şansı yoxdur. Məsələn, "Politnaviqator" informasiya agentliyi yazır ki, Paşinyanın sərsəmliyi ölkədə yeni etiraz dalğasına səbəb olacaq. Məqalədə qeyd olunur ki, sentyabrın sonlarında iki güc strukturunun rəhbərinin - Milli Təhlükəsizlik Xidmətinin (MTX) rəisi Artur Vanetsyanın və Ermənistan polisinin rəisi Valeri Osipyanın istefaya göndərilməsi Paşinyanın qəribə qərarlarından biridir: "Çünki cəmi bir neçə ay əvvəl elə Paşinyan özü onlara general rütbəsi vermişdi. İstefadan sonra MTX-nin rəisi Paşinyanın ona təklif etdiyi Futbol Federasiyasının rəhbəri vəzifəsindən imtina edərək, baş naziri ağılsız qərar verməkdə təqsirləndirib. Paşinyan da, öz növbəsində, ABŞ-a səfəri zamanı çıxışında keçmiş rəisin ona qarşı çıxmasını "poqonları zibil yeşiyinə atmaq" kimi qiymətləndirib".



Agentlik yazır ki, Paşinyanın ətrafından sızan məlumata görə, MTX-nin rəisi vəzifəsinə hazırkı ədliyyə naziri, 27 yaşlı Rustam Badasyanın təyin olunacağı gözlənilir: "Gənc olmağı bir tərəfə qalsın, Badasyan ümumiyyətlə, hərbi sahədən uzaq insandır, güc strukturlarında bir gün də çalışmayıb. Gələcək rəisin "Soros" Fondunun Ermənistan nümayəndəliyinin rəhbəri Larisa Minasyanın namizədi olduğu da ekspertlərin gözündən qaçmayıb. Ermənistan baş nazirinin qəribə qərarlarından biri kimi öz meydan silahdaşı Armen Qriqoryanı Təhlükəsizlik Şurasının rəhbəri təyin etməsini qeyd etmək olar. Qriqoryanın Ermənistanla Qarabağ arasında yol çəkmək barədə sərsəm bəyanatı bu qərarın, yumşaq desək, qəribəliyinə sübutdur. Küçədən yığılmış meydan hökumətində belə hallar əvvəlcədən gözlənilən idi və inqilabdan ötən təxminən bir ilin sonunda Paşinyan komandası martın axırlarında əriməyə başlayan qar yığınını xatırladır.

Hələ bu yaxınlaradək Paşinyana ümidlər bəsləyən politoloqlar və müşahidəçilər indi onun Ermənistanın ən xırda problemlərini belə həll etməyə qadir olmadığını bildirirlər. Onun Amerikaya bu yaxınlarda baş tutmuş və ölkəyə heç bir fayda gətirməyən səfəri də Ermənistanda tənqid olunub və bildirilib ki, baş nazirin BMT tribunasına çıxıb saqqalını yelləməsinə 300 min dollar xərclənib".

Rusiyanın "Nezavisimaya qazeta" mətbu orqanı da yazır ki, 2018-ci ilin aprelində Ermənistanda "məxməri inqilab" adlanan siyasi fırıldaq nəticəsində hakimiyyət Nikol Paşinyana keçib. Lakin bu hadisədən ilyarım keçsə də, Ermənistan demokratik ölkəyə çevrilməyib. Qəzet yazır ki, Ermənistan konstitusiya və qanunlarla deyil, qeyri-hökumət təşkilatlarının nizamnamələri ilə idarə olunur: "Keçmiş prezident Sarkisyan 2010-2017-ci illərdə bilərəkdən ölkədə Qərb fondları, qeyri-hökumət təşkilatları və təriqətləri üçün "yaşıl işıq" yandırıb. Məqsəd isə dövlətçiliyin zəiflədilməsi olub. Ermənistanda Corc Sorosun Açıq Cəmiyyət Fondu, "Yehovo şahidləri" təriqəti və digər belə təşkilatlar fəaliyyət göstərir. Ümumilikdə, ölkədə 3,5 mindən çox qeyri-hökumət təşkilatı var ki, onların da əksəriyyəti Qərb ölkələri tərəfindən maliyyələşdirilir. Ermənistanın hazırkı hökumətində Qərb qeyri-hökumət təşkilatlarının əməkdaşları işləyir. Məsələn, baş nazirin müavini, bir çox nazirlər, o cümlədən LQBT birliyinin lobbiçisi, mədəniyyət və idman naziri Araik Arutyunyan, təhlükəsizlik şurasının katibi, parlamentin sədri və müavini xarici ölkələrin xüsusi xidmət idarələrinin agentləridir. Rusiya ilə münasibətlərdə isə Paşinyan hökumətinin davranışı qeyri-müəyyəndir".

Məqalədə qeyd olunur ki, Ermənistan hökuməti hakimiyyət strukturlarına Rusiyadakı erməni diasporunun nümayəndələrini inteqrasiya etmək niyyətində deyil. Diaspor üzrə komissar vəzifəsinə ABŞ vətəndaşı Zare Sinanyanın təyin edilməsini qəzet Rusiyadakı erməni diasporuna sillə kimi qəbul edir. Bildirilir ki, erməni xalqını parçalamağa çalışan Paşinyan rejimi ölkədə qarşılıqlı nifrət abhavası yaradıb, demokratik cəmiyyət qurmaq adı altında insanların hissləri ilə oynayır: "Yeni hakimiyyətin elan etdiyi sevgi və barışıq inqilabı bir çox ictimai və siyasi xadimlərlə haqq-hesab çürüdür, məhkəmə sistemi güclü təzyiqlərə məruz qalır, saxtalaşdırılmış cinayət işləri Ermənistanı avtoritar dövlətə çevirir. Paşinyan daxili və xarici siyasətdə özünün qeyri-müəyyən hərəkətləri ilə Ermənistan milli təhlükəsizliyi üçün təhdidlər yaradır. O, Sorosla bağlı iki fonda hökumət fondundan böyük məbləğdə vəsait ayırır, ekoloji təhlükə yaradan "Amulsar" qızıl yatağının yenidən işlənməsi barədə qərar verir, öz rejiminə yararsız insanları siyasi meydandan açıq-aşkar uzaqlaşdırmağa çalışır. Son zamanlar Paşinyan "Sasna tserer" terror təşkilatı ilə əlaqələr qurmağa başlayıb. Bu da çox təhlükəlidir".

Xatırladaq ki, bu günlərdə Ermənistanda olan İtalyan Katolik Həftəlik Qəzetləri Federasiyasının (FISC) jurnalistlərdən biri Çiara Biagioni də Ermənistanda vəziyyətin böyük qarşıdurmaya getdiyinə dair xəbərdarlıqla çıxış edib. Jurnalist tənhalığa düçar olmuş yaşlılarla bağlı acınacaqlı vəziyyətin hökm sürdüyünü, hazırda Ermənistanda gənclərin iqtisadi böhranla əlaqədar olaraq ölkəni tərk etdiyini qeyd edir. İtaliyalı jurnalist Ermənistanın qərb sərhədlərinə başqa ölkənin əsgərlərinin nəzarət etdiyini və onların sərhəddən giriş və çıxışı qadağan etdiyini, eyni vəziyyətin şərq sərhədlərində də mövcud olduğunu vurğulayır. O, Ermənistanın Azərbaycanla müharibə şəraitində olmasının ölkəni mütəmadi şəkildə gərginlikdə saxladığını, istər qərb, istərsə də şərq sərhədlərinin bağlı olmasının malların tranzitinə, ticarətin inkişafına mane olduğunu, bu vəziyyətin də ölkəni ciddi iqtisadi böhrana gətirib çıxardığını diqqətə çatdırır. Analitiklərin fikrinə istinad edən jurnalist Azərbaycanla yekun bir razılığın əldə edilməyəcəyi və Türkiyə ilə münasibətlərin yaxşılaşmayacağına qədər vəziyyətin dəyişməyəcəyini bildirib. Elə bunlar da Paşinyan iqtidarı üçün böyük zərbə sayılır.

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Ermənistan yeni xofda - Putinin gedişləri Qarabağ məsələsində özünü yaxın vaxtlarda göstərəcək...

**Rusiya - Ermənistan münasibətlərində problemlərin artdığı bir vaxtda Moskva - Bakı əlaqələrində yeni yüksəliş İrəvanda getdikcə daha böyük təlaş doğurur. Ümumiyyətlə, Ermənistanda hesab edirlər ki, Rusiya prezidenti Vladimir Putinin son gedişləri yaxın tezlikdə öz nəticələrini verəcək və bu da İrəvan üçün bütün istiqamətlərdə ciddi prolemlərin başlanğıcı olacaq.**

Belə problemlərdən biri isə Dağlıq Qarabağ münaqişəsi ilə ilgili Ermənistanın mövqeyinə ciddi zərbə vurulması ilə bağlıdır.

Hesab edilir ki, Rusiyanın Azərbaycan və Ermənistana mövcud yanaşması məsələnin həlli istiqamətində çox ciddi yeniliklərə gətirib çıxaracaq. Hadisələrin hansı məcrada inkişaf edəcəyi isə yaxın günlərdə bəlli olacaq. Belə ki, Rusiya prezidentinin azərbaycanlı həmkarı İlham Əliyevlə oktyabrın 3-də Soçidə görüşəcəyi gözlənilir. Rusiya prezidentinin mətbuat katibi Dmitrii Peskovun sözlərinə görə, bu, Putinin də qatılacağı "Valday" Klubu çərçivəsində baş tutacaq və İlham Əliyev klubdakı bir neçə qonaqdan biri olacaq. Peskov qeyd edib ki, qonaq prezidentlərin hər biri ilə ikitərəfli görüş planlaşdırılıb. İkitərəfli görüş zamanı müzakirə predmeti olacaq məsələlərdən biri isə məhz Qarabağ münaqişəsi olacaq.

Soçidə keçiriləcək görüşdən əvvəl Rusiya prezidenti Avrpasiya İqtisadi Birlyinin sammitində, həmçinin İran prezidenti və Sinqapur baş nazirinin də qatıldığı iqtisadi forumda iştirak etmək üçün Ermənistanda olacaq. Amma bu zaman o, baş nazir Nikol Paşinyanla ikitərəfli görüş keçirməyəcək və bu xüsusda erməni tərəfinin xahişi Putin tərəfindən rədd edilib. Rusiya Dövlət Dumasının deputatı Dmitri Savelyev qeyd edir ki, Putinin Azərbaycan və Ermənistan liderləriilə fərqli davranışı başadüşüləndir: "Rusiya ilə Azərbaycan arasındakı münasibətlər inkişaf edir, siyasi əlaqələr daha da güclənir. Rusiya ilə Azərbaycan arasındakı münasibətlərin sürətlə inkişaf etdiyini, ticarət dövriyyəsinin artdığını görürük. Bu ilin səkkiz ayı ərzində ticarət dövriyyəmiz 25 faiz artıb və mütəxəssislərin fikrincə, yaxın bir neçə ildə də artacaq". Onun sözlərinə görə, Azərbaycan Rusiyanın Cənubi Qafqazda ən etibarlı tərəfdaşıdır və bunu əməldə sübut edir. Ermənistana gəlincə isə, tamam fərqli vəziyyət hökm sürür və bu da regionda hadisələrin ümumi axarına, o cümlədən Qarabağ münaqişəsinə təsir edir. Dmitri Savelyevin dediklərindən belə bəlli olur ki, Moskvanın atacağı addımlar Qarabağ məsələsinin həllini Azərbaycanın maraqları çərçivəsində sürətləndirə bilər. Rus ekspert Modest Kolerov isə Ermənistanın "168. jam" xəbər portalına müsahibəsində proseslərin belə inkişaf axarında Ermənistanın özünün günahkar olduğu bildirir: "Rusiya prezidentinin Ermənistana hakimiyyət dəyişikliyindən bəri bura ilk səfəri İrəvan üçün heç də xoş keçmir. Bəlkə də proqnozlar vermək və nəticələr çıxarmaq üçün hələ tezdir, lakin səfərin əsas məqamı təkcə prosedur, yaxud rəsmi mərasim hissəsi deyil, həm də ikitərəfli görüş üçün gündəliyin nə olacağı və bu səfərin faktiki nəticələrinin münasibətlərdə necə olmasıdır. Çünki ikitərəfli münasibətlərdə daim suallaların yarandığı, toplanaraq qaldığı bir həqiqətdir. Həm hərbi-texniki əməkdaşlıqda, həm iqtisadi, həm də siyasi əlaqələrdə problemlər var. Bundan əlavə, Rusiya tərəfinin Ermənistan hakimiyyətinin "Rusiyanı sürükləməyə" yönəlmiş bir çox təbliğat səylərə nümayişkarcasına diqqət göstərmədiyi, Paşinyan üçün işləyən təbliğatçıların öz işlərini dayandırmadığı çox açıqdır. Ən kiçik bir şəkildə Putini və təmsilçilərini günahlandırmaq, tənqid etmək və Moskvada kimsəni əsəbiləşdirə biləcək hərəkətlər etmək, Paşinyanı bir "inqilabçı" kimi tanıtmaq səylərinə ara verilmir. Bu bir xəyanətdir. Üstəlik, bu cür təbliğatla məşğul olan insanlar üçün ciddi bir hal, ciddi bir xəstəlikdir".

Ekspert baş verənlər fonunda Rusiya mediasında antierməni fikirlərinin çoxalmasını da təbii sayır: "Bəziləri antierməni təbliğatı aparır, lakin Kremllə heç bir əlaqəsi yoxdur. Ermənistana gəldikdə, qeyd edirəm ki, belə təbliğat yuxarıdan idarə olunur, Rusiyada isə belə deyil. Belə misallar varsa, vurğulayın, amma bilirəm ki, belə nümunələr yoxdur. Kreml bunu etmir. Necə ola bilər ki, biri ilə oturub sonra onu tənqid edib ona qarşı təbliğat aparasan? Ağlasığmazdır. Ancaq əminəm ki, gec-tez Kreml Ermənistanla bağlı qərar verməli olacaq, çünki bu qəsdən düşünülmüş bir siyasətdir".

Kremlin hansı qərarı verə biləcəyinə gəlincə, ekspert qeyd edir ki, Ermənistanla münasibətlərin dondurulmasına qərar verə bilər: "Çünki uzun müddət dözülməsinə, həzm edilməsinə səbr etmək mümkün deyil, düşünürəm ki, uğur qazanmayacaq, çünki bu siyasət dayanmayacaq, bu açıq bir siyasi xətt, qərar, inancıdır. Cavabsız qalan bir çox bəyanatlar verilir. Bunlar inciməyə, geri çəkilməyə ciddi əsaslar verən bəyanatlardır. AİB və KTMT kimi birliklərə üzv olması Ermənistanın Rusiyayönlü siyasət yürütdüyünü düşünmək üçün kifayət deyil.

Çünki onlar siyasi strukturlar deyil. AİB-ə baxın, bu yalnız iqtisadi bir quruluşdur, kimlərlə bu strukturda əməkdaşlıq edildiyinə və ya kimlərin qoşulduğuna baxın, burada heç bir siyasi komponentin olmadığını görəcəksiniz. Eyni şeyi KTMT haqqında da deyəcəm. Ancaq siyasi münasibətlərdə məsələlərin yığılıb qaldığını və həll olunmadığını, bəyanatlar verildiyini təkrar edirəm. Bu mənada, Putinin Ermənistana səfəri olduqca soyuq olacaq. Onu da qeyd edək ki, Putin Ermənistan Respublikasına deyil, AİB Ali Şurasının iclasına gəlir, yəni gündəliyi AİB-dir və ev sahibi ikitərəfli məzmunun olubolmamasını dəqiqləşdirmək üçün gündəliyini qarşı tərəfə təqdim etməlidir".

Ekspert bildirir ki, Rusiyanın narazılığa yol açan məqamlardan biri də Qarabağın Ermənistan olması barədə açıqlamalardır və bunu Kreml gözardı etmək niyyətində deyil: "Çünki belə yanaşma Moskvanın bölgədə sülhyaratma fəaliyyətinin üzərindən xətt çəkilməsi deməkdir. Erməni rəsmilər fikirləşirlərmi ki, bu açıqlama nə deməkdir? Bu, danışıqlar prosesinin başa çatması, bütün danışıqlar prosesinnin səhv olması deməkdir. Bu kimi bir çox başqa bəyanatlar var ki, Moskvanın qəzəbli, əsəbi, narahat olması üçün kifayətdir".

Digər rus ekspert Maksim Şevçenko da baş verənlərin Qarabağ münaqişəsinə təsirsiz ötüşməyəcəyi qənaətindədir. Ekspertin sözlərinə görə, Rusiyanın Cənubi Qafqaza qarşı münasibətdə siyasəti dəyişməz olaraq qalır və eyni zamanda, burada baş verən geosiyasi hadisələr Kremlin region üzrə xarici siyasət kursunu dəyişməyi tələb edir: "Emənistanın mövqeyi Rusiya üçün ciddi təhdid yaradır. Rusiya özünün həyati maraqları üçün Cənubi Qafqazı izləyir. Bütün proseslərə nəzarət etmək istəyir, ancaq bunu birbaşa etmək mümkün deyil, çünki ABŞ və Avropa daha güclü və təsirlidir. Eyni zamanda, Mərkəzi Kəşfiyyat İdarəsinin Qafqazdakı ən böyük ofisi və analitik iqamətgahı İrəvanda yerləşir. Bakıda və Tiflisdə deyil, məhz İrəvanda. Bunun məqsədini Rusiyada yaxşı başa düşürlər. Amma Rusiyada başa düşülməyən Ermənistanın Kreml əleyhinə olan bu fəaliyyətə şərait yaratmasıdır. Moskva bunu cavabsız qoya bilməz. Bunu geosiyasi vəziyyət də tələb edir. Bir müddət əvvəl gördüyümüz kimi, Vladimir Putin, Rəcəb Tayyib Ərdoğan, Həsən Ruhani - Rusiya, Türkiyə və İran liderləri üçtərəfli yaxınlaşmağa hazır olduqlarını nümayiş etdiriblər.Və əlbəttə ki, Ermənistanda Rusiya rəhbərliyinin Ərdoğanla görüşü xüsusi narahatlıqla qarşılanır. Bu fonda İrəvanın anti-Rusiya mövqeyi "erməni lobbisinin sıçrayış addımlarla inkişaf edən Rusiya-Türkiyə münasibətlərinə" reaksiyası ilə bağlıdır. Təbii ki, bu reaksiya da Moskvanı razı salmır". Ekspert vurğulayır ki, bu durumda Rusiya üçün Azərbaycan ön plana çıxır. Oktyabrın 3-də Soçidə keçiriləcək "Valday" Klubunun iclası çərçivəsində Azərbaycan və Rusiya liderlərinin görüşünü şərh edərkən Şevçenko bildirib: "Vladimir Putin və İlham Əliyevin münasibətləri təkcə dövlətlərarası münasibətlər üzərində qurulmur. İlk öncə bu, köhnə və yaxşı dostların münasibətidir. Aydındır ki, bu hal Azərbaycan üçün həyati əhəmiyyət daşıyan Qarabağ məsələsinə də öz təsirini göstərəcək". Öz növbəsində hərbi ekspert, politoloq İqor Korotçenko qeyd edib ki, Putinin yaranmış vəziyyətdə İrəvana getməsini Ermənistana səfər hesab etmək olmaz: "Bu, rəsmi səfər deyil. Bu, Rusiya dövlət başçısının Avrasiya İqtisadi Şurasının ali iclasına səfəridir. Putin Ermənistan rəhbərliyinə inanmır". Erməni siyasi şərhçi Hayk Xalatyan isə bunun ölkəsi üçün mənfi nəticələr yaratmasının qaçılmaz olduğunu qeyd edir: "Əlbəttə, Ermənistan hakimiyyətinə mesaj var, qəribədir ki, Rusiya prezidenti gəlir və öz müttəfiqi ilə ikitərəfli görüş keçirmir. Rusiya prezidentinin gəlməsi və görüşün olmaması müəyyən bir mesajdır. İstisna edilmir ki, bu mesaj Ermənistana baha başa gələcək".

Bütün bunlar bir daha təsdiq edir ki, Nikol Paşinyanın fəaliyyəti ucbatından Rusiya-Ermənistan münasibətləri həddsiz gərgin vəziyyətdədir. Eyni zamanda Moskvanın Paşinyanın siyasətinə inamı yoxdur. Putin bilir ki, Paşinyan hər dəqiqə Qərbə yönələ bilər. Odur ki, rusların Paşinyanı cəzalandırması məsələsi qaçılmaz sayılır. Belə cəzalardan biri isə Paşinyanı Qarabağ münaqişəsi üzərindən vurmaq, zəbt edilmiş ərazilərin daha bir hissəsinin Azərbaycana qayıdışını təmin etməkdir. Çünki bu hal Paşinyan iqtidarının sonunu tezləşdirəcək və Moskvanın da istəyi elə budur.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Putinin şəraba yeni aksiz qərarları - Rusiya bazarında Azərbaycan şərabını nə gözləyir?

**Rusiya Prezidenti Vladimir Putin 1 yanvar 2020-ci ildən şərab üçün aksiz vergilərinin artırılması haqqında qanunu imzalayıb. Aksiz vergisinin həcmi 2020-ci ildən hər litrə 31 rubl, 2021-ci ildən 32 rubl, 2022-ci ildən 33 rubl olacaq. 2020-ci ildən etibaran şampanın hər litri üçün 40 rubl, 2021-ci ildə 41 rubl, 2022-ci ildə isə 43 rubl səviyyəsində olacaq.**

*"Bizim şirkətlər Ukrayna və digər Şərqi Avropa ölkələrinə də şərab ixrac edirlər"*

***Nicat Nəsirli:** "Rusiyanın bu qərarı, ümumilikdə, Azərbaycanın şərab ixracına o qədər də təsir etməyəcək"*

Qanun bundan əvvəl vergiyə cəlb edilməyən şərab materiallarına da aid olacaq. 2020-ci ildə buna görə hər litr üçün 31 rubl, 2021-ci ildə 32 rubl və 2022-ci ildə 33 rubl miqdarında vergi tutulacaq. Bir sözlə, aksiz vergisi şərab, şampan, içki şərabı və alkoqol istehsalı üçün istifadə olunan üzümlərə də şamil ediləcək. 2020-ci ildən başlayaraq hər il 1 rubl artacaq.

Rusiya mətbuatı yazır ki, qanun yerli istehsalçılara dəstək məqsədi daşıyır. Bununla belə, yerli materialların çatışmazlığı səbəbindən yeni qaydalar pərakəndə şərab qiymətinin artmasına səbəb ola bilər. Mütəxəssislərin fikrincə, həm Rusiya istehsalı olan, həm də idxal olunan şərabların qiymət artımı beş faizdən on faizə qədər ola bilər.

O da məlumdur ki, son illər Azərbaycanın şərab ixracı artır. Azərbaycanda istehsal olunan şərab məhsulları bir sıra ölkələrə ixrac edilir. Azərbaycanın şərab məhsulları ixrac etdiyi ölkələrdən biri də Rusiyadır. Maraqlıdır, Rusiyanın aksiz vergilərini artırması Azərbaycanın şərab ixracına necə təsir edə bilər?

Məsələyə münasibət bildirən kənd təsərrüfatı üzrə ekspert Nicat Nəsirlinin sözlərinə görə, Rusiyanın məlum qərarı Azərbaycanın şərab ixracına o qədər də təsir etməyəcək: "Rusiya şərab ixracında ənənəvi bazar idi. Ancaq Azərbaycan hazırda Belarusa daha çox şərab ixrac edir. Hətta bu ildən Çinə və digər ölkələrə şərab ixracı başlayıb. Bizim şərabın əsas istiqaməti Avropa bazarlarıdır. Hesab edirəm ki,



Rusiyanın bu qərarı davamlı olmayacaq. Düzdür, Rusiya bunu daha çox daxili istehsalı qorumaq adıyla edir. Ancaq Rusiyada, ümumilikdə, şərab və şərab məhsullarına tələbat böyükdür. Əvvəllər də Rusiya belə addımlar atıb, amma sonra bu, müvəqqəti xarakterli olub.

**Adətən qərarlar qəbul edilərkən müəyyən risqləri nəzərə almaqdan ötrü bu, uzunmüddətli olur. Ancaq bu heç də hər zaman belə olmur. O baxımdan güman edilir ki, Rusiyanın bu qərarı heç də, deyildiyi kimi, uzunmüddətli olmayacaq.**

Bizim şirkətlər Rusiya ilə yanaşı, Ukrayna və digər Şərqi Avropa ölkələrinə də şərab ixrac edirlər. O baxımdan, Rusiyanın bu qərarı, ümumilikdə, Azərbaycanın şərab ixracına o qədər də təsir etməyəcək".

***Vidadi ORDAHALLI***

# Dövriyyədə saxta yüz manatlıq əskinasların artım məsələsi ciddiləşir

**Azərbaycan Mərkəzi Bankı (AMB) ölkədə olan kommersiya banklarına saxta əskinaslarla bağlı xəbərdarlıq edib. Qeyd edək ki, məktub dövriyyədə saxta pul əskinasların olması ilə bağlı AMB-yə daxil olan şikayətlər əsasında yazılıb.**

*"Son zamanlar Mərkəzi Bankın nağd pul dövriyyəsində saxta əskinaslar artdığı üçün..."*

***Natiq Cəfərli:** "Saxta əskinaslar böyük mağazalar vasitəsilə kommersiya banklarına keçir"*

Məktubda qeyd olunur ki, Mərkəzi Bank bununla bağlı monitorinqlər aparıb və həmin əskinasların kommersiya banklarına məxsus ATM-lərdən çıxdığı aydınlaşıb. Həmçinin, bankların bu məsələdə diqqətli olması, yararlı olmayan əskinasları ATM-lərə daxil etməmək tapşırılır. Kommersiya banklarına göndərilən məktubda qeyd olunur ki, banklar yararlı olmayan əskinasları aparıb Mərkəzi Banka təhvil versinlər. Məlumat üçün bildirək ki, bu məktub ölkədəki bütün kommersiya banklarına ünvanlanıb.

Xatırladaq ki, Azərbaycan manatlarının mühafizəsi sistemi dörd mərhələdən ibarətdir.

Mərkəzi Bankın saxta əskinaslarla bağlı banklara müraciət etməsi əhalini təşvişə salıb.

İqtisadçı-ekspert Natiq Cəfərli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Mərkəzi Bankın nağd pul dövriyyəsinə nəzarət və ehtiyatlarının yığılması ilə bağlı səlahiyyətləri var. Dövriyyədə olan nağd vəsaitin bir qismi öncə Mərkəzi Bankın sərəncamına, sonra isə digər banklara keçir: "Ehtimal olunur ki, son zamanlar Mərkəzi Bankın nağd pul dövriyyəsində saxta əskinaslar artdığı üçün kommersiya banklarına müraciət edib. Bu hal müşahidə olunduqdan sonra kommersiya banklarına ehtiyatlı olması üçün məktublar göndərib. Məlumat üçün bildirim ki, böyük ticarət dövriyyələri gün ərzində topladıqları vəsaiti çox zaman banklara verir. Banklar diqqətsizlik edərək saxta əskinası qəbul edirlər. Belə olan halda, həmin saxta əskinaslar banklar vasitəsilə hansısa yatırıma yönəldilir. Müəyyən müddət keçəndən sonra saxta əskinaslar açkar olunur".



Həmsöhbətimizin sözlərinə görə, saxta əskinaslar böyük mağazalar vasitəsilə kommersiya banklarına keçir. Nəzərə almaq lazımdır ki, kiçikhəcmli banklar alış-veriş zamanı əskinasların həqiqi olub-olmamasına diqqət yetirirlər. Ancaq böyük ticarət mərkəzləri diqqətsizlik edərək saxta əskinasları qəbul edirlər. Daha sonra həmin əskinas kommersiya banklarına yönləndirilir.

***Günel CƏLİLOVA***

**Sosial şəbəkələr artıq həyatımızın ayrılmaz hissəsinə çevrilib. Burada ölkə başçılarından tutmuş, siyasətçilərə, sənət adamlarına, adi insanlara rast gəlmək mümkündür. Şəbəkə sahibləri isə dünya üzrə tələbatı nəzərə alıb daim yeni funksiyalar yaradır, insanlara fərqli məşğuliyyətlər təqdim etməyə çalışırlar.**



# Canlı "Facebook" yayımlarında iştirak sürücülərin qəza törətməsinin əsas səbəblərindən birinə çevrilir

## *Vaqif Əsədov: "Bu gün istər respublika ərazisində, istərsə də Bakı şəhəri üzrə qeydə alınan yol qəzalarının 70 faizi bu cür səbəblərdən baş verir"*

Artıq sosial şəbəkələrdə "canlı yayım" funksiyası da istifadəçilərin ixtiyarına verilib. Sosial şəbəkə istifadəçilərinin bir qismi yaşadıqları anları guya digər istifadəçilərlə bölüşmək istəyirlər. Halbuki, bu, o insanların özlərini göstərməsindən başqa bir şey deyil. Çünki bu, adamın özünə aiddir və baş verənlərin də yalnız onun üçün dəyəri var.

Bu gün "Facebook" və "İnstagram"da canlı yayım açmaq artıq bəzi istifadəçilər tərəfindən adət halını alıb. Müğənnilər restoranda mahnı oxuyarkən, evdar xanımların bir qismi mətbəxdə yemək hazırlayarkən, bəzi sürücülər isə yolda gedərkən canlı yayım açırlar. Sükan arxasında əyləşən sürücülər canlı yayım açaraq həm öz həyatlarını risqə atırlar, həm də ətrafdan keçən digər nəqliyyat vasitələrinin.

Sürücülər yol gedərkən canlı yayım açırsa, yayıma qoşulan digər istifadəçilər onlara sual və ya rəy yazmaqla sükan arxasında əyləşən şəxsin fikrini yayındırırlar. Beləliklə, yolqəza hadisələrinin sayı artır.

Məlumat üçün bildirək ki, bu günlərdə paytaxtın H.Əliyev prospektində "LADA Priora" markalı avtomobili idarə edən sürücü telefonla canlı yayıma çıxaraq qəza törədib. Hərəkət zamanı yolu çəkən sürücü bir anlıq diqqətsizlik edərək maşınını qarşıdakı digər avtomobilə vurub.

Qeyd edək ki, sosial şəbəkədə canlı yayıma çıxaraq qəza törədən sürücülər az deyil.

Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi, polis polkovniki Vaqif Əsədov bildirdi k, sükan arxasında sürücünün mobil telefonla danışması, ümumiyyətlə, sürücünün diqqətinin yayınmasına səbəb olan davranışlara yol verməsi qanun pozuntusudur: "Bu gün istər respublika ərazisində, istərsə də Bakı şəhəri üzrə qeydə alınan yol qəzalarının 70 faizi bu cür səbəblərdən baş verir. Eyni zamanda, dəfələrlə sürücülərə səslənərək onları yol hərəkəti qaydalarına riayət etməyə çağırırıq. Bir neçə gün əvvəl baş verən hadisədə sürücü sükan arxasında mobil telefondan istifadə etməklə yalnız özü üçün deyil, həm də digər yol hərəkəti iştirakçılarına da təhlükə yaradıb. Bu, birbaşa "Yol hərəkəti haqqında" Qanunun tələblərinin kobud şəkildə pozulmasıdır. Sükan arxasında telefondan istifadə etməklə qəza şəraiti yaradan sürücülər heç də qəhrəmanlıq etmirlər. Onlar aidiyyəti üzrə qanunun tələblərinə uyğun olaraq məsuliyyətə cəlb olunacaqlar".

*"Sükan arxasında sürücünün mobil telefonla danışması, ümumiyyətlə, sürücünün diqqətinin yayınmasına səbəb olan davranışlara yol verməsi qanun pozuntusudur"*

Həmsöhbətimizin sözlərinə görə, avtomobil yollarında baş verən qəzalar heç kimin şəxsi həyatı deyil: "Küçə və yollardan hər kəsin eyni dərəcədə istifadə etmək haqqı var. Vətəndaşların heç biri digərinin təhlükəsizliyini risqə atacaq qayda pozuntusuna yol verə bilməz. İctimai yerlərdə baş verən yol qəzaları heç kimin şəxsi həyatı ola bilməz. Sizin vasitənizlə həmin sürücüyə və onun timsalında bu cür qayda pozuntularına yol verərək qəza halları yaradanlara səslənirəm ki, bu, qəhrəmanlıq deyil. Bu kimi davranışlar, eyni zamanda, digər sürücüləri də qanun pozuntusuna çağırır. Buna yol vermək olmaz. "Yol hərəkəti haqqında" Qanunun tələbləri onlara riayət etmək üçündür. Qanunun tələblərini pozan hər kəs, kimliyindən asılı olmayaraq, məsuliyyətə cəlb olunacaq".

***Günel CƏLİLOVA***

**İstedadlı uşaqlar qayğı ilə əhatə olunduqda onların istedadı cəmiyyət, dövlət üçün olduqca faydalı, gərəkli olur. Azərbaycanda hər zaman istedadlı uşaqlara xüsusi qayğı göstərilir, onların bilik və bacarıqlarının üzə çıxarılması üçün xüsusi layihələr həyata keçirilir. Azərbaycanda istedadlı uşaqlar üçün xüsusi siniflərin əhatə dairəsi genişləndirilib.**



# Orta məktəblərdə xüsusi istedadlı uşaqlar üçün ayrıca siniflər şəbəkəsi genişlənir

## *"İstedadlı uşaqlar üçün xüsusi siniflərin yaradılmasının böyük əhəmiyyəti var"*

Təhsil Nazirliynin yaydığı məlumata görə, 2019-2020-ci tədris ilində istedadlı uşaqlar üçün 102 xüsusi sinif yaradılıb.

Nazirlikdən verilən məlumata görə, hazırda Bakı, Sumqayıt, Gəncə, Mingəçevir və Şirvan şəhərləri ilə yanaşı, 47 rayon üzrə 82 məktəbdə, ümumilikdə, 162 xüsusi sinif fəaliyyət göstərir. 4000-ə yaxın şagird sözügedən siniflərdə təhsillərini davam etdirir.

Müvafiq siniflər üzrə il ərzində bir neçə dəfə səviyyə müəyyənləşdirmə imtahanı, müəllimlərin peşəkarlığının yüksəldilməsi istiqamətində seminar və mühazirələr təşkil ediləcək.

Bölgələrdə xüsusi siniflərin təşkil olunmasında məqsəd istedadı ilə seçilən şagirdlərin elmi potensialının inkişafı, onların müvafiq istiqamətlər üzrə daha keyfiyyətli hazırlığının təmin edilməsidir.

Qeyd edək ki, 2018-2019-cu tədris ilində Bakı şəhərində 18, Sumqayıt, Gəncə, Mingəçevir şəhərləri ilə yanaşı, Ağdaş, Bərdə, Xaçmaz, Quba, Şəki, Şəmkir, Zaqatala, Kürdəmir, Ağcabədi, İsmayıllı, Qəbələ, Sabirabad rayonlarında isə 29 məktəb olmaqla, ümumilikdə, 47 ümumtəhsil məktəbində VII və VIII siniflər üzrə istedadlı şagirdlər üçün 60 xüsusi sinif təşkil edilib. 7-ci siniflər üzrə riyaziyyat-informatika təmayüllü, 8-ci siniflər üzrə isə təbiət elmləri təmayüllü siniflər yaradılıb.

İstedadlı uşaqlar üçün yaradılan xüsusi siniflərin əhəmiyyətini şərh edən tanınmış təhsil eksperti Xanım Qasımova "Bakı-Xəbər"ə bildirdi ki, xüsusi siniflərin yaradılması Azərbaycan uşaqlarının gələcəyinə müsbət təsir göstərəcək. "İstedadlı uşaqlar üçün xüsusi siniflərin yaradılmasının böyük əhəmiyyəti var. Bu o uşaqların bilik və bacarıqlarından cəmiyyətin gələcəkdə istifadə etməsi üçün böyük şərait yaradır. Bilirsiniz ki, musiqidə, incəsənətdə xüsusi istedadı olan uşaqlar üçün xüsusi məktəblər var, gedib elə uşaqları rayonlardan, kəndlərdən axtarıb üzə çıxarırlar. Ola bilsin, hansısa bir uşağın hansısa bir istedadı olsun və o, xüsusi sinifdə oxuyarkən onun istedadı üzə çıxa bilər. Xüsusi siniflərdə istedadlı uşaqlara təkan verilir və onların istedadları cilalanır, inkişaf edir. Cəmiyyətə gələcəkdə elmə faydalı olmaları üçün o uşaqları xüsusi olaraq hazırlayırlar. Bu siniflərdə onlar öz bilik və bacarıqlarını inkişaf etdirir, müəllimlər onları doğru ünvana yönəldirlər".

*Xanım Qasımova: "...məqsəd istedadlı uşaqların beyninin inkişaf etdirilməsi, onların gələcək fəaliyyətinin elmə yönəldilməsi kimi məsələlərdir"*

X.Qasımovanın sözlərinə görə, bu gün dünya təcrübəsində də belə bir məsələ var. Dünyanın müxtəlif yerlərində xüsusi istedadı olan uşaqlar bir araya gətirilərək onlara dərslər keçilir. "Hələ əvvəlki dövrlərdə xüsusi istedadı olan uşaqları bir yerə yığıb onları dünya olimpiadasına hazırlayırdılar. Bu ənənə indi də var. Dünya olimpiadasına hazırlaşan xüsusi şagirdlər olur ki, onları xüsusi müəllimlər hazırlayırlar. Azərbaycan məktəblərində yaradılan xüsusi siniflərdə həmin məktəblərin daha savadlı, seçilən müəllimləri dərs keçirlər. Xüsusi istedadı olan uşaqların dərsləri gücləndirilmiş proqram əsasında keçilir. Xüsusi siniflərin yaradılmasında məqsəd istedadlı uşaqların beyninin inkişaf etdirilməsi, onların gələcək fəaliyyətinin elmə yönəldilməsi kimi məsələlərdir. Bu uşaqların xüsusi riyazi biliyi, onların kəşfləri, yenilikləri ola bilər" - deyə X.Qasımova qeyd etdi.

***İradə SARIYEVA***

# Azərbaycanda min manatdan çox maaş alan müəllimlərin sayı 5 mini ötdü...

**Son bir ildə müəllimlərin əməkhaqlarının artırılması onların fəaliyyətinə müsbət təsir edir. Azərbaycanda 1000 manatdan artıq əməkhaqqı alan müəllimlərin sayı kütləviləşir. Məlumatlara görə, 5000 nəfərdən çox müəllim 1000 manatdan yuxarı maaş alır.**

***Kamran Əsədov:*** *"...milli təhsil islahatlarının bir hissəsini də ixtisaslı müəllim kadrlarının hazırlanması, müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılması təşkil edir"*

Təhsil naziri Ceyhun Bayramov İsmayıllıda Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının üzvləri ilə görüşdə bu məsələyə xüsusi toxunub. Nazir son illər müəllimlərin peşəkarlıq səviyyəsinin və cəmiyyətdə nüfuzunun artırılması istiqamətində görülən işlərdən danışıb. Müəllimlərin fəaliyyətinin stimullaşdırılması ilə bağlı davamlı tədbirlərə diqqət çəkən təhsil naziri deyib ki, Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, müəllimlərin aylıq vəzifə maaşları cari il sentyabrın 1-dən orta hesabla 20 faiz artırılıb. Bu dəyişiklikdən sonra aylıq əməkhaqqı 1000 manatdan çox olan müəllimlərin sayı təxminən 5000 nəfər təşkil edib.

Müəllim peşəsinə marağın artdığını qeyd edən Ceyhun Bayramovun sözlərinə görə, ümumilikdə, son 5 ildə məktəblərin müəllim tərkibi keyfiyyət baxımından yaxşılaşıb, 20 mindən çox gənc müəllim işə qəbul olunub. Müəllimlərin işə qəbulu üzrə əldə olunan nailiyyətlərə toxunan təhsil naziri qeyd edib ki, cari ildə müsabiqədə iştirak edənlərin sayı əvvəlki illərə nisbətən 3 dəfədən çox artıb, müraciət edənlərin sayı təqribən 55 min olub.

Məsələyə münasibət bildirən tanınmış təhsil ekperti Kamran Əsədov, ilk növbədə, qeyd etdi ki, dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əməkhaqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci ildə sərəncamı var idi.

Dərs yükü bölüşdürülərkən mövcud qanunvericiliyin və təlimati sənədlərin tələbləri, müəllimlərin diaqnostik qiymətləndirmədə göstərdiyi nəticələr müəssisə rəhbəri tərəfindən nəzərə alınır. "Dərs bölgüsü aparılarkən müəssisədə işləyən müəllim üçün həftəlik dərs yükü 18 saat (bu zaman həftəlik dərs yükü 2 stavkadan artıq olmamalıdır) müəyyənləşdirilir. Vakant dərs yükü 18 saatdan az olarsa, həmin saatlar, ilk növbədə, müəssisənin ixtisaslı müəllimləri arasında bölüşdürülür.

Müəssisədə hər hansı ixtisasdan kadr olmadıqda, həmin ixtisas üzrə tədris planına əsasən müəyyənləşdirilmiş həftəlik dərs yükü 18 saatadək olduğu halda, yerli təhsili idarəetmə orqanının və ərazi maliyyə-hesablaşma mərkəzinin razılığı ilə müəssisə rəhbəri tərəfindən digər müəssisələrdən əvəzçiliklə və ya saathesabı qaydasında müəllim dəvət olunur.

Amma dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərlə yanaşı, dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmayan müəllimlər də var idi. Bunlar o müəllimlər idi ki, onlar MİQ-dən kənar işə qəbul olunublar, bundan başqa, onların diplomları dövlət nümunəli deyildi. Həmin müəllimlərin əməkhaqqını 2015-ci ildə artırılmamışdı və onlar köhnə stavka ilə, bir stavka 12 saat olan tariflə əməkhaqqı alırdılar və 6 saata qədər dərs deyə bilirdilər. Lakin indi yeni qayda onların stavkasını 12 saatdan 18 saata qaldırdı, lakin dərs saatları artmadı. Bu da onların əməkhaqqının ciddi şəkildə azalmasına gətirib çıxaracaq. Çünki onlar əvvəl köhnə 12 saatlıq stavka ilə 6 saat, yarım stavka dərs deyib pul alırdılarsa, indi onlar artım olmadan bu əməkhaqqını alacaqlar".

K.Əsədov vurğuladı ki, indi həftəlik 1 stavka dərs yükü 18 saat olduğu üçün 490 manat bölünür dərs saatına və artımla o dərsin pulunu qiymətləndirmədə iştirak edən, MİQ yolu ilə qəbul olunan alır, amma bunlarda iştirak etməyən daha da az əməkhaqqı alacaq. "Belə ki, buna qədər MİQ-dən kənar işə qəbul olunan, diplomu dövlət nümunəli olmayan 80-90 manat əməkhaqqı alırdısa, indi bir az da az əmək haqqı alacaq.

Belə izah edim ki, MİQ və qiymətləndirmədə iştirak edib işə qəbul olunanın həftəlik 1 stavka dərs yükü 18 saat olduğu üçün 490 manat bölünür 18 saata, tapılır 1 saatın məbləği və onu artımla alır. Amma MİQ və qiymətləndirmədən kənar qəbul olunan, diplomu dövlət nümunəli olmayanda bu, az olur. Hardasa 1 dərs saatı 8-9 manat. Qeyd edim ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən milli təhsil islahatlarının bir hissəsini də ixtisaslı müəllim kadrlarının hazırlanması, müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılması təşkil edir. Son illər Azərbaycan təhsilə qayğı ildən-ilə artmaqdadır. Bunu təhsilin bütün sferalarında aparılan davamlı islahatlar bir daha təsdiq edir. 2014-2018-ci illərdə Təhsil Nazirliyinin diaqnostik qiymətləndirməsindən keçən müəllimlərin orta aylıq əməkhaqqı 465 manatdır. 2014-cü ildən bu günə kimi 142 min müəllim diaqnostik qiymətləndirmədən keçib. Amma maaşın 20 faiz artımı diaqnostik qiymətləndirmədən keçməyənlərə də şamil olunur. Əməkhaqlarının artımı diaqnostik qiymətləndirmədən keçən bütün müəllimlərə şamil ediləcək. Amma artım zamanı qiymətləndirmədən keçən müəllimlər arasında fərq qoyulmayacaq, artım bütün müəllimlərin əməkhaqlarına eyni səviyyədə təsir göstərəcək. Hazırkı dövrdə diaqnostik qiymətləndirmənin nəticələri müəllimlərin dərs bölgüsü zamanı nəzərə alınır. Bu o deməkdir ki, diaqnostik qiymətləndirmənin nəticələri yüksək olan müəllim daha çox dərs saatı alacaq və bu da onun yüksək əməkhaqqı almasına imkan verəcək. Bu artımdan sonra təkcə Bakı şəhərində 8965 nəfər müəllimin əməkhaqqı 500-1000 manat, 476 nəfər müəllimin əməkhaqqı isə 1000 manatdan yuxarı olub. Aparılan islahat nəticəsində həmin müəllimlərin orta aylıq əməkhaqqı 465 manat təşkil etməklə, ölkə üzrə müvafiq göstəriciyə yaxınlaşıb. Yeni artımdan sonra müəllimlərin əməkhaqqı orta hesabla 77-99 manat artıb. İndi pedaqoji stajı 3 ilə qədər olan və bir stavka dərs yükü (18 saat) dərs deyən müəllim aylıq 462 manat, pedaqoji stajı 18 ildən çox olan və və bir stavka dərs yükü (18 saat) dərs deyən müəllim aylıq 594 manatlıq əməkhaqqı oldu".



*"Bu artımdan sonra təkcə Bakı şəhərində 8965 nəfər müəllimin əməkhaqqı 500-1000 manat, 476 nəfər müəllimin əməkhaqqı isə 1000 manatdan yuxarı olub"*

**K.Əsədovun sözlərinə görə, diaqnostik imtahanda iştirak etməyən müəllimlər var ki, onlar 6 saata qədər dərs deyirlər və onların əməkhaqqı 2016-cı il 1 yanvara qədər qüvvədə olan ödəmə cədvəlinə uyğun olaraq həyata keçirilir. O vurğuladı ki, onlar barəsində də qərar olacaq və onların əməkhaqları dərs saatına görə artırılacaq. Hazırda isə onların 80-100 manat arasında əməkhaqqı adıqlarını deyən K.Əsədov hesab edir ki, 2019-cu ilin 1 sentyabrından bu rəqəmlər 150 manata qədər artırılıb.**

***İradə SARIYEVA***

# İnternet məkanda Azərbaycan dilinin orfoqrafiyasına nəzarət sistemi nə vaxt olacaq...

**Azərbaycan dilinin internet resurslarında işləkliyi elə də ürəkaçan səviyyədə deyil. Nə sosial şəbəkələr, nə internet proqramları, nə də digər vasitələrdə dilimizin orfoqrafiya nəzarət sistemi yoxdur. Bu üzdən, dilimizin qayda-qanunları internet resurslarında lazımi səviyyədə oturuşmayıb.**

*"Proqram tərtib etmək, internet resurslarında orfoqrafik və digər sahələr üzrə nəzarət sistemi yaratmaq dilçilərin deyil, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin işidir"*

***Buludxan Xəlilov:** "Təəssüf ki, hələ də Azərbaycan dili internet resurslarının dilinə uyğunlaşdırılmayıb"*




Baxmayaraq ki, Rusiya da daxil olmaqla, bizə yaxın olan ölkələrin əksəriyyətində dilin orfoqrafik mexanizm sistemi hazırlanaraq internet resurslarında oturdulub. Məsələn, biz rus, ingilis, alman və s. dillərdə hər hansı bir sözü səhv yazırıqsa, avtomatik olaraq, orfoqrafik nəzarət sistemi işə düşür və bizə sözün düzgün yazılış formasını təqdim edir. Bizdə isə bu hələ də probem olaraq qalmaqdadır. Bu gün, demək olar ki, Azərbaycan dilinin elektron platforması yoxdur və əlimizdə olanlar isə hədsiz dərəcədə nöqsanlıdır.

Məlum olduğu kimi, 17 iyul 2018-ci il tarixində Prezident İlham Əliyev "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncam imzalayıb. Amma əlaqədar qurumlar hələ də Sərəncamdan irəli gələn məsələlərin həlli istiqamətində hər hansı bir tədbir görməyə tələsmir. Zaman sürətlə keçir, dilimizin internet resurslarında istifadəsi iflic vəziyyətdədir. Aidiyyəti qurumlar isə, nədənsə, problemin həllinə keçmək əvəzinə, gözləmə mövqeyini seçiblər.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, Dövlət Dil Komissiyasının üzvü, professor Buludxan Xəlilov "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan dilinin internet sisteminin yaradılması üçün Prezident tərəfindən müvafiq sənədlər imzalanıb, lakin hələ də bu istiqamətdə görülən işlər qənaətbəxş deyil. "Təəssüf ki, hələ də Azərbaycan dili internet resurslarının dilinə uyğunlaşdırılmayıb. Bunun üçün xüsusi proqram işlənib hazırlanmalı və tətbiq edilməlidir. Nəqliyyat Rabitə və Yüksək Texnologiyalar Nazirliyi bu sistemin yaradılması ilə məşğul olmalıdır. Çünki proqram tərtib etmək, internet resurslarında orfoqrafik və digər sahələr üzrə nəzarət sistemi yaratmaq dilçilərin işi deyil, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin işidir. Sadəcə olaraq, nazirlik bu işlə məşğul olmalı, dillə bağlı hansısa bir problemlə bağlı dilçilərə sorğu göndərməli və dilçilər isə izah verməlidirlər. Bu gün internet resurslarında, sosial şəbəkələrdə, həmçinin də ayrı-ayrı proqramlarda orfoqrafik nəzarət sistemini yaratmağa ciddi ehtiyac var. Dilimiz həm də elektron dil olmalıdır. Ona görə ki, bu gün dillər arasındakı rəqabət həm də elektron dil vasitəsilə həyata keçirilir. Bu gün təkcə kitab çapı sahəsində rəqabət aparılmır, həm də elektron resursları dili ilə bağlı rəqabət var. Bu səbəbdən də istənilən dilin bu rəqabətə dözməsi üçün dilin elektron məkanda tətbiqi proqramı olmalıdır. Məsələn, dünyanın nüfuzlu dillərinin elektron resurslarda işlək proqramı var. Bu proqramın üstünlüyü odur ki, beynəlxalq dillərdə olan kitablar bu sistem vasitəsilə bir dildən digər dillərə asanlıqla tərcümə olunur. Amma Azərbaycan dilində bu mümkün deyil. Dilimizdən hər hansı bir kitabı ingilis dilinə, yaxud ingilis dilindən olan bir kitabı dilimizə çevirmək mümkünsüzdür. Əslində, internet, informasiya əsrində biz itiririk. Tez dəyişən dünyada mövcud olan informasiyaları nüfuzlu dillər vasitəsilə operativ şəkildə əldə edə bilmirik. Eləcə də Azərbaycanda olan maraqlı informasiyaları, maraqlı əsərləri, tariximizlə bağlı hər hansı bir məlumatı zamanında dünyaya çatdıra bilmirik. Bu da bizim dünyanın informasiya məkanında geridə qalmağımıza səbəb olur".

B.Xəlilov vurğuladı ki, rus, ingilis və digər dillərin internet resurslarında tətbiqi proqramı olduğu üçün, onlar hər hansı bir sözün düzgün yazılışını bu proqram vasitəsilə müəyyən edə bilirlər. Azərbaycanda belə bir proqramın işləməsinin vacib olduğunu deyən B.Xəlilov qeyd etdi ki, bizdə orfoqrafik nəzarət sisteminin, proqramının olmaması saytlarda, sosial şəbəkələrdə, eləcə də digər internet resurslarında yazı mədəniyyətimizin mükəmməl olmadığını ortaya qoyur. "İnsanlar səhv yazırlar, amma həmin o nəzarət sistemi olarsa, yazılanlar o proqram vasitəsilə düzgün şəkildə öz həllini tapar. Çünki proqram səhv yazılan sözlərin düzgün yazılışını göstərir. Bu gün həm saytlarda, həm də insanlar arasında yazışmalarda kifayət qədər orfoqrafik səhvə yol verilir.

Ölkə başçısının imzaladığı sənədlərdə də bu məsələ əks olunub ki, Azərbaycan dili elektron resurslar sisteminə gətirilsin və formalaşdırılsın. Bu sənəddə Azərbaycan dilinin elektron işləkliyinin təmin olunması xüsusi maddə kimi mövcuddur. Bu dil internet dili olmalıdır, informasiya-kommunikasiya vasitələrinin dili olmalıdır. Bu o deməkdir ki, Azərbaycan dili elektron resurslarda proqramlaşmalıdır. Çox təəssüflər olsun ki, bu məsələ söz olaraq qalır və nəticədə Azərbaycan dilinin elektron imkanları məhdudlaşır. Biz dünyanın qabaqcıl ölkələrinin təcrübəsindən yararlana bilmirik" - deyə B.Xəlilov vurğuladı.

***İradə SARIYEVA***

# Oktyabrın 2-də Baş Prokurorluğun yeni "961" Çağrı mərkəzi fəaliyyətə başlayır



**Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətinin məlumatına görə, müraciətlərə baxılması işi prokurorluq orqanlarının əsas vəzifələrindən biri hesab edilməklə son illər bu sahədə işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılması istiqamətində müasir üsul və metodlardan istifadə edilir.**

2001-ci ildən başlayaraq vətəndaş məmnunluğunun təmin olunması məqsədilə qarşıya qoyulmuş vəzifələrin həlli istiqamətində bir çox işlər görülüb, o cümlədən Baş Prokurorluqda "Qaynar xətt", Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində isə "161 Qaynar xətt" əlaqə mərkəzləri yaradılaraq uğurla fəaliyyət göstərir.

Ötən müddət ərzində "Qaynar xətt" əlaqə mərkəzləri vətəndaşlarla, kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları ilə əlaqələrin daha da genişləndirilməsinə, bu sahədə fəaliyyətin təkmilləşdirilməsinə, operativliyin və aşkarlığın artırılmasına xidmət edib, müraciətlərin həlli istiqamətində zəruri tədbirlər görülüb.

Dövlət başçısı İlham Əliyevin vətəndaş-məmur münasibətlərinin meyarlarını müəyyən edən tövsiyələrindən irəli gələrək qanunçuluğun və vətəndaş məmnunluğunun təmin edilməsi, prokurorluq orqanlarında müraciətlərin qəbulu üzrə fəaliyyətin daha da təkmilləşdirilməsi, daxil olmuş ərizə və şikayətlərə dərhal baxılması, müraciət müəlliflərinin məlumatlandırılması və izahların verilməsi məqsədilə Baş Prokurorluqda "961" nömrəli Çağrı Mərkəzi yaradılıb.

Oktyabrın 2-dən fəaliyyətə başlayacaq "961" nömrəli Çağrı Mərkəzində prokurorluğun fəaliyyət istiqamətləri üzrə, eləcə də prokurorluq işçilərinin qanunsuz hərəkətləri, ibtidai araşdırma və əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi zamanı yol verilən pozuntular barədə müraciətlərin qəbulu və qeydə alınması, daxil olan sualların birbaşa və ya araşdırıldıqdan sonra cavablandırılması mümkün olacaq.

**Aşkarlığın təmin edilməsi məqsədilə müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə edilməklə səs yazılarının qeydə alınacağı və fasiləsiz olaraq fəaliyyət göstərəcək Çağrı Mərkəzinə müraciətlərin qəbulu və cavablandırılması respublikanın istənilən regionundan stasionar telefonlar, eləcə də mobil operatorlar vasitəsilə ödənişsiz həyata keçiriləcək.**

# "Olimp'" MTK ilə Binəqədidə bina sahiblərinin 6 min manat mübahisəsi - hər mənzil üçün...

**Uzun müddət idi ki, Bakıda çoxmərtəbəli binaların idarəçiliyi ilə bağlı narazılıqlar yaşanırdı. Çoxmərtəbəli binalarda yaşanan əsas problem mənzil üçün çıxarışın alınması idi. Əksər MTK-lar mənzil sahiblərindən artıq pul əldə etmək üçün çıxarışı sakinlərə pulla verirdi.**



Bu kimi problemlərin həll olunması üçün cari ilin əvvəlində ölkə başçıs çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi ilə bağlı fərman imzaladı. Həmin fərmana əsasən, 2019-cu ilə qədər tikilmiş və azı bir hissəsində sakinlər məskunlaşan binaların sadələşdirilmiş prosedurla istismarına icazə veriləcək. Bundan sonra vətəndaşlar çıxarış almaq üçün müraciət edə biləcəklər.

Çoxmərtəbəli binaların mənzil çıxarışının sadələşdirilməsi ilə bağlı Prezidentin imzaladığı fərmana baxmayaraq, bəzi MTK-lar yenə də öz bildiklərini etməkdə davam edirlər.

Bu günlərdə Binəqədi rayonu, Əcəmi Naxçıvani küçəsində "Olimp" MTK tərəfindən tikilən yaşayış binasında yaşayan sakinlər mənzillərinə çıxarış ala bilmədikləri üçün etiraz edirlər. Bakıda 200-dən çox ailə mənzillərinə çıxarış ala bilmir. Adıçəkilən MTK-nın yaşayış binasında yaşayan sakinlər mənzillərinə çıxarış almaq istəyirlər, amma şirkət tərəfindən onlara problem yaradılır.

Sakinlər bildirirlər ki, həmin binada yaşayan 200-dən çox ailə mənzillərinə çıxarış ala bilmir: "Olimp" MTK tikinti şirkəti mənzillər üçün "protokoldan çıxarış"ı yalnız müəyyən pul qarşılığında təqdim edir. Şirkət bizə üç sənəd verməlidir. Daha doğrusu, şirkət bu sənədləri bizə verməyə borcludur. Biz də həmin sənədləri mənzilimizə çıxarış almaq üçün Əmlak Məsələləri Dövlət Komitəsinə təqdim etməliyik. Tikinti şirkəti isə o sənədləri yalnız pul qarşılığında vermək istəyir və bunun müqabilində bizdən qanunsuz olaraq özlərinin təyin etdikləri məbləği tələb edirlər. Halbuki, biz mənzili alanda evin pulunu onlara ödəmişik. Biz MTK-nın sədrləri Lətif Kərimov və İsmayıl İsmayılovla görüşürük və sözümüzü onlara deyirik. Onlar isə bizə sənədləri verməkdən yayınırlar".

***"Olimp'" MTK - Lətif Kərimov:** "Şikayət edən sakinlərin hər birinin tikinti şirkətinə kommunal ödənişlərlə bağlı borcu var"*

***Ramil Osmanlı:** "Qanunvericiliyə görə, MTK-lar mənzilin alqı-satqısı zamanı "protokoldan çıxarış"ı alıcıya mütləq təqdim etməlidirlər"*

Sakinlər onu da iddia edirlər ki, "protokoldan çıxarış" sənədini MTK verməli olduğu halda, şirkət rəhbərliyi müxtəlif bəhanələr gətirərək bu sənədi verməkdən imtina edir: "Şirkət evin kvadratını 30 qəpikdən hesablayaraq özündən bir məbləğ çıxarır. Şəxsən mənim mənzilimə "protokoldan çıxarış" verilməsi üçün 6000 manat pul istəyirlər. Bunlar hamısı qanunsuzdur. Pulunu verib sənədləri alan da var".

Qeyd olunan ittihamların ciddiliyini nəzərə alıb "Olimp'" MTK ilə əlaqə saxladıq. MTK-nın sədri Lətif Kərimov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etd ki, sakinlərin səsləndirdiyi iddialar əsassızdır. Onun sözlərinə görə, şikayət edən sakinlərin hər birinin tikinti şirkətinə kommunal ödənişlərlə bağlı borcu var: "Biz sakinlərə dəfələrlə bildirmişik ki, borc ödənildikdən sonra onlara "protokoldan çıxarış" veriləcək. Lakin onlar borcu ödəmək istəmirlər. Kommunal borcu ödəyəndən sonra onların mənzil çıxarışı veriləcək. Burada problemli heç nə yoxdur".

Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı bildirdi ki, qanunvericiliyə görə, MTK-lar mənzilin alqı-satqısı zamanı "protokoldan çıxarış"ı alıcıya mütləq təqdim etməlidirlər. Ancaq, bir çox hallarda, şirkətlər bu qaydaya əməl etməyərək vətəndaşların hüquqlarını pozurlar.

**Həmsöhbətimiz onu da vurğuladı ki, çoxmərtəbəli binalardakı mənzillərin dövlət qeydiyyatına alınmasının dövlət üçün həm hüquqi, həm də iqtisadi baxımdan çox böyük faydaları var: "Hüquqi baxımdan mövcud mənzil fondunun genişlənməsi, qeydiyyatının asanlaşmasına səbəb olacaq".**

***Günel CƏLİLOVA***

# Sabunçuda 8 min nəfərlik 6-cı mədən yaşayış sahəsi dəhşətli çirkab axınları altında...

**Sabunçu rayonunun bəzi ərazilərində çirkab sularının axıdılmasında problemlər yaşanır. Problem ondadır ki, mövcud kanalizasiya xətləri həmin ərazilərdə məskunlaşan əhalinin sayına adekvat deyil. Məskunlaşma o qədər çoxdur ki, bu səbəbdən kanalizasiya xətləri tez-tez tutulur.**



Bu da həmin ərazilərdə yaşayan sakinlər üçün ciddi problemlər yaradır. Belə yaşayış sahələrindən biri də Sabunçu rayonu 6-cı mədən adlanan ərazidir.

Sözügedən yaşayış massivində yaşayan Sabir Cəbiyevin sözlərinə görə, 6-cı mədəndə tez-tez kanalizasiya xətləri tutulur: "Nəticədə çirkab sular axa bilmədiyi üçün tutulur. Bəzən də elə olur ki, çirkab sular daşır. Burada bir neçə çoxmənzilli bina var, qalan evlərin hamısı fərdi inşa edilən evlərdir. Həmin evlər də əsasən 2000-ci ildən sonra tikilib. Hər ev tikiləndən sonra kanalizasiya xəttinə qoşulur. Nəticədə çirkab suları ötürməyə xəttin gücü çatmır. Bu səbəbdən tez-tez kanalizasiya xətti tutulur və üfunət iyindən dayanmaq olmur. Əgər mövcud kanalizasiya xətləri yenilənsə, o zaman çirkab suların axıdılmasında problem yaşanmayacaq. Çünki hazırkı xətt bir belə tullantını ötürmək gücündə deyil. Altıncı mədəndə hardasa 7 min nəfərdən çox əhali yaşayır. Ölkənin müxtəlif rayonlarından bura gəlib məskunlaşanlar var. Məskunlaşanların bir qismi məcburi köçkünlərdir. Yaşayış massivi Balaxanı qəsəbəsinin tabeliyindədir. Təxminən 8 il əvvəl buranın elektrik, qaz və su təchizatı bərbad vəziyyətdə idi. Su fasilə ilə verilirdi. Sakinlərin hamısı su çəni alıb vəziyyətdən çıxırdı. Normal qaz xətti belə yox idi. Şükürlər olsun, bütün bu problemlər öz həllini tapdı. İndi elektik enerjisi, qaz və su təchizatından əziyyət çəkmirik. Yolla da bağlı problem yoxdur. Problem yalnız kanalizasiya xətti ilə bağlıdır. İstəyirik ki, kanalizasiya xətləri yenilənsin".

Yaşayış massivində olarkən həqiqətən də mövcud problem özünü göstərirdi. Məsələ ondadır ki, ərazideki bir sıra yerlərdə üfunət iyindən qalmaq olmurdu. Çirkab suların normal axıntısının olmaması üzündən bəzi yerlərdə tullantı sularının əməllicə sızması müşahidə edilirdi. Bu səbəbdən ətrafa üfunət qoxusu yayılırdı.

***Sabir Cəbiyev:** "Tez-tez kanalizasiya xətti tutulur və üfunət iyindən dayanmaq olmur"*

***Natiq Fərhadov:** "...xoşagəlməz mənzərə ilə üz-üzəyik"*

***Rəsul Cahangirli:** "Əhalinin nizamsız formada məskunlaşması mövcud kanalizasiya xətlərinin normadan çox yüklənməsinə gətirib çıxarıb"*

Altıncı mədən sakini Natiq Fərhadov deyir ki, tullantı suların axıdılmasında əvvəlki illərə baxanda indi problemlər daha tez-tez yaranır: "Ona görə ki, hazırki xətlər çirkab suları ötürmək gücündə deyil. O vaxt sözügedən xətlər ancaq binalar üçün nəzərdə tutulub. Sonra elə oldu ki, ətrafda çoxsaylı fərdi ev, obyektlər tikildi. Bu səbəbdən, bir növ, kanalizasiya xətti tıxanıb. Yayda vəziyyət daha pis olur. Üfunət iyindən gecələr həyətdə oturmaq olmur. Bəzən elə olur ki, axıntı olmadığına görə çirkab sular hamamın içinə qayıdır. O dərəcədə xoşagəlməz mənzərə ilə üz-üzəyik".

Sözügedən məsələ ilə bağlı "Azərsu" Açıq Səhmdar Cəmiyyəti ilə gün ərzində bir neçə dəfə əlaqə saxlamağa çalışsaq da, bu mümkün olmadı.

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, bununla bağlı bir sıra işlər görülməlidir: "Son illər Bakının su-kanalizasiya sisteminin yenilənməsi üçün bir sıra işlər görülüb. Yeni xətlər çəkilib, əvvəlki sistemlər yenilənib. Ancaq buna baxmayaraq, Bakıətrafı bir sıra ərazilərdə kanalizasiya xətləri qaydasında deyil. Elə yerlər var ki, ümumiyyətlə, orada kanalizasiya xətti yoxdur. Əhali kanalizasiya əvəzinə quyulardan istifadə edir. Yəni tullantı suları quyulara yönəldilir ki, bu da torpaqların ekoloji baxımdan çirklənməsinə gətirib çıxarır. Əsas problem həm də onunla bağlıdır ki, əhalinin nizamsız formada məskunlaşması mövcud kanalizasiya xətlərinin normadan çox yüklənməsinə gətirib çıxarıb. Ona görə də bununla bağlı xüsusu proqram hazırlanmalıdır".

***Vidadi ORDAHALLI***

**Azərbaycanda mövsümə uyğun olaraq, ən müxtəlif meyvə-tərəvəz, cərəzlər festivallarının keçirilməsi artıq ənənə halını alıb. Son on ildə belə səpkili bir neçə festival keçirilib və bu festivallarda yerli sakinlərlə yanaşı paytaxtdan gedən qonaqlar və xarici turistlər yaxından iştirak edib.**

# Zaqatalada fındıq, qoz, şabalıd festivalı Azərbaycanın qiymətli məhsulunu dünya bazarında daha da populyarlaşdıran üsul kimi...

***Nicat Nəsirli:** "Zaqatalada fındıq, qoz, şabalıd festivalının təşkil olunması müsbət haldır"*




Artıq bir neçə ildir ki, Zaqatala da bu festivalların sırasına qoşulub. Belə ki, Zaqatalada II Beynəlxalq fındıq, qoz və şabalıd festivalı başlayır.

Zaqatala Rayon İcra Hakimiyyətindən (RİH) mətbuata verilən məlumata görə, Zaqatala RİH-nin təşkilatçılığı, Mədəniyyət və Kənd Təsərrüfatı nazirliklərinin, Azərbaycan Fındıq İstehsalçıları və İxracatçıları Assosiasiyasının, Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki "Aqrar Tədarük və Təchizat" ASC-nin dəstəyi ilə keçirilən festivalda əsas məqsəd ölkəmizin, eləcə də Zaqatala rayonunun iqtisadi, mədəni və turizm potensialını daha geniş nümayiş etdirməkdir.

Festivalın rəsmi açılış mərasimi Zaqatala şəhərindəki "Dədə Qorqud" meydanında baş tutacaq. Festival iştirakçıları fındıq, qoz və şabalıddan hazırlanmış əl işləri, rəsm və tətbiqi sənət nümunələrindən ibarət sərgilərə baxacaq, fındıq emalı və ixracı ilə məşğul olan müəssisələrin istehsal etdiyi məhsullarla tanış olacaqlar.

Yarmarkada fındıq, qoz və şabalıdın müxtəlif növləri nümayiş olunacaq. Həmçinin, müsabiqələr də keçiriləcək, qaliblər mükafatlandırılacaq.

Zaqatalada fındıq, qoz, şabalıd festivalının keçirilməsi Azərbaycanın qiymətli məhsulunun dünya bazarında daha da populyarlaşmasına nə kimi təsir göstərəcək?

Aqrar sahə üzrə tanınmış mütəxəssis Nicat Nəsirli baki-xeber.com-a bildirdi ki, bu tipli festivalların Azərbaycanın gərzəkli nemətlərinin dünya bazarlarına daha kütləvi şəkildə çıxmasına və özünə sabit alıcı qazanmasında çox mühüm rolu olacaq.

"Zaqatalada fındıq, qoz, şabalıd festivalının təşkil olunması müsbət haldır. Bu cür festivalların təşkil olunması bu sahəni aktuallaşdırmaq, bu sahəyə həm investisiya cəlb etmək, həm dövlət proqramlarında qoyulan tələblərin həyata keçirilməsinə nail olmaq, eyni zamanda da bu məhsulların dünya bazarındakı yerini möhkəmlətməkdir. Hesab edirəm ki, bu məhsulların istehsalçılarının birləşdikləri assosiasiyalar hökmən təlimləndirmə, maarifçilik və digər elmi istiqamətlərdə tədbirlər həyata keçirməlidirlər ki, bundan sonrakı mərhələlərdə bizim gərzəkli meyvələrin istehsal prosesi daha yüksək səviyyədə həyata keçirilə bilsin".

Bu gün dünya bazarında dəyərlərin dəyişdiyini qeyd edən N.Nəsirlinin sözlərinə görə, artıq strateji məhsulların yerini gərzəkli nemətlər tutmaqdadır: "Dünya bazarının konyekturasının təhlili göstərir ki, bu istiqamətdə ciddi dəyişikliklər baş verir. Əgər əvvəllər strateji məhsul olan çörək və çörək məhsulları, ət və ət məhsulları bazarın dəyərini artırırdısa, hazırda dünya bazarında ixtisaslaşma gedir, o cümlədən də gərzəkli meyvələr dünya bazarında strateji baxımdan yüksək qiymətləndirilir. Bunların içində fındıq və qoz məhsulunun üzərində durmağa xüsusi ehtiyac var. 2018-ci ilin dünya bazarında alış-satış trendinin təhlili göstərir ki, ən çox tələbat olan məhsullardan birincisi fındıqdır. Keçən ilin yekunlarına görə, fındıq ilin ən strateji məhsulu elan olunub. Son illər bir sıra ölkələr, xüsusən də Amerika, İspaniya, ən yaxın qonşumuz Türkiyə fındıqçılığın ən müxtəlif istiqamətlərdə intensiv metodlarından istifadə ilə bağlı bir sıra mühüm addımlar atırlar və təbii ki, Azərbaycan da bu prosesdən geri qala bilməz. Türkiyə və Azərbaycan fındıqçılığın inkişafı ilə bağlı bir sıra layihələr həyata keçirməyə başlayıblar. Nəyə görə fındıq? Çünki fındığın digər sahələrə də çox gözəl təsiri var. Fındıq dünya sənayesində çox mühüm yer tutur, onun qabığı mebel sənayesi üçün çox qiymətli hesab olunur. 2018-ci ildə fındıqçılıq Azərbaycanda ixrac və strukturuna görə üçüncü yeri tutdu. Ölkəyə təxminən 100 milyon manatdan çox valyuta gətirdi və 2020-ci ilin təhlili göstərir ki, fındıq və digər gərzəkli meyvələr dünya bazarında öz mövqeyini daha da gücləndirəcək. Bizim dünya bazarına qlobal şəkildə çıxmağımız üçün nələr lazımdır? İlk növbədə bizdə fındıq istehsalçılarının bir koordinasiyası, təşkilatlanma forması yox idi. Bu təmin olunub, artıq onlar assosiasiyada birləşiblər. Bu assosiasiyanın bir nömrəli vəzifəsi dünya bazarında gedən proseslərlə bağlı fındıq istehsalçılarını məlumatlandırmaqdır".

N.Nəsirli bildirdi ki, bizdə gərzəkli meyvələrlə bağlı ən böyük problemimiz tingçiliklə əlaqədar idi. Artıq bir sıra bölgələrdə tingçilik təsərrüfatının yaradıldığını deyən N.Nəsirlinin sözlərinə görə, burada sağlam tingçilik sisteminin qurulması çox vacibdir. "Bununla bağlı ciddi planlar hazırlanır, Şəki-Zaqatala bölgəsində tingçilik təsərrüfatı təşkil olunmalıdır. Statistikaya baxsaq tinglər əsasən müxtəlif xarici ölkələrdən gəlir və tinglər də bizə məlum olmayan müxtəlif virus mənşəli xəstəliklərə tutulur. Nəticədə bağın bioloji ömrü tez başa çatır. Yəni fermer iqtisadi baxımdan ziyana düşür. Bu vacib məsələdir, ümumiyyətlə kənd təsərrüfatının bütün sahələrində belədir ki, həm toxumçuluq, həm tingçilik ölkənin özündə təşkil olunsun, tamamilə sağlam bitkiçilik təmin olunsun. Burada digər məsələ gərzəkli meyvələrin emal prosesindən keçməməsidir.

Bizdə emal prosesi çox zəifdir. Dünya praktikasına baxsaq görərik ki, gərzəkli meyvələr bir neçə emal prosesindən keçir. Ancaq bizdə bir mərhələ var. Ölkədə emal prosesi güclü olsa, biz fındıqdan bir sıra məhsullar əldə edə bilərik" - deyə N.Nəsirli bildirdi.

***İradə SARIYEVA***

№ 174 (4072) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

1 OKTYABR 2019-cu il

www.baki-xeber.com

# "Nar+" ilə 5 hesabı birdən idarə etmək imkanı!

**Müştəriyönümlü strategiyasını uğurla davam etdirən mobil operator "Nar" rəqəmsal formatda və real rejimdə şəxsi hesablara nəzarət etmək imkanı verən "Nar+" tətbiqini artıq bir aydır ki, abunəçilərinin istifadəsinə verib. Bu qısa müddət ərzində 35.000-dən çox "Nar" abunəçisi tətbiqi yükləyərək qeydiyyatdan keçib.**

Tətbiqin daha bir unikal xüsusiyyəti eyni anda vahid platforma üzərindən 5-dək hesaba nəzarətetmə imkanı verməsidir. Belə ki, əgər bir neçə şəxsi "Nar" nömrə istifadə edirsinizsə və ya yaxınlarınızın hesabında əməliyyat aparmaq lazımdırsa, tətbiqdən çıxmadan bir kliklə bir hesabdan digərinə keçid edə bilərsiniz.

Tətbiq vasitəsilə abunəçilər artıq bir neçə saniyə ərzində tariflər haqqında məlumat əldə edib, özlərinə ən uyğun tarifə qoşula, mövcud tarifi dəyişə, yeni internet paketi sifariş edə, bonuslarını yoxlaya və yeniləyə bilərlər. Bundan başqa, tətbiq kredit və balans sorğularını icra etməyə, rominq paketləri barədə də məlumat alıb bir kliklə xidməti aktivləşdirməyə imkan verir. Bundan başqa, "Nar+" tətbiqi, ümumilikdə, lazım olan bütün informasiyanı verməklə, müştəri xidmətlərinə zəng etmək ehtiyacını minimuma endirir və abunəçilərin vaxtına qənaət etmiş olur. Hər hansı bir sual yarandığı təqdirdə isə onlayn çat vasitəsilə kömək təqdim olunur. Qeyd edək ki, "Nar+" tətbiqini AppStore və PlayStore-dan yükləyə bilərsiniz. Tətbiq haqqında daha ətraflı məlumatı https://www.nar.az/plus/ səhifəsindən əldə etmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,6 %-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 8700-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.

## Elan

Bakı şəhəri, Nizami rayonu, Şərifli küçəsi, ev 78, mənzil 35 ünvanı üzrə Süleymanov Çingiz Soltan oğlunun adına verilmiş dövlət reyestrindən çıxarış itirildiyi üçün etibarsız sayılır.

"Sənan - S" MMC-yə məxsus (VÖEN 2900051691) nizamnamə itdiyi üçün etibarsız sayılır.

Bayramova Səadət Nizami qızına məxsus, Abşeron rayonu, Qobu qəsəbəsində yerləşən torpaq sahəsinə verilmiş çıxarış (seriya RX №0233496) itdiyi üçün etibarsız sayılır.

Rzayev Əli Ağa Aydın oğlunun adına məxsus, Bakı şəhəri, Nəsimi rayonu, Q.Quliyev küçəsi 55, mənzil 2 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Hüseynov Vüqar Teyyub oğlunun adına, Abşeron rayonu, Fatmayi kəndində yerləşən 0,08 ha torpaq sahəsinin çıxarışı (seriya MA 0177225) itdiyi üçün etibarsız sayılır.

Xankişiyev Zamiq Fəyyaz oğluna Bakı şəhəri, Bakıxanov küçəsi, 758/759 məhəllə, 2-ci giriş 6-cı mərtəbə, 78 saylı mənzilə "Qız qalası" MTK tərəfindən verilmiş müqavilə itdiyi üçün etibarsız sayılır.

Həmidov Sərdar Fariz oğluna Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kolleci tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Hüseynov Vüqar Teyyub oğlunun adına, Abşeron rayonu, Fatmayi kəndində yerləşən torpaq sahəsinin çıxarışı (seriya RX 0144882) itdiyi üçün etibarsız sayılır.

İsmayılov Vasif Cəlil oğluna məxsus, Bakı şəhəri, Nərimanov rayonu, Sabit Rəhman küçəsi, ev 32, mənzil 1 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

İsmayılov Vasif Cəlil oğluna məxsus, Bakı şəhəri, Nərimanov rayonu, Xan Şuşinski küçəsi, ev 33, mənzil 5 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

İsmayılov Vasif Cəlil oğluna məxsus, Bakı şəhəri, Nərimanov rayonu, Xan Şuşinski küçəsi, ev 33, mənzil 4 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

İsmayılov Vasif Cəlil oğluna məxsus, Bakı şəhəri, Nərimanov rayonu, Sabit Rəhman küçəsi, ev 32, mənzil 8 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

İsmayılov Vasif Cəlil oğluna məxsus, Bakı şəhəri, Nərimanov rayonu, Xan Şuşinski küçəsi, ev 33, mənzil 9 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

İsmayılov Vasif Cəlil oğluna məxsus, Bakı şəhəri, Nərimanov rayonu, Sabit Rəhman küçəsi, ev 32, mənzil 13 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

## 4G "Nar" şəbəkəsi ölkə əhalisinin 91,5%-nin xidmətində!




**Abunəçilərinə hər zaman yüksək keyfiyyətli rabitə xidmətləri təqdim edən "Nar" sürətli 4G şəbəkəsini bütün ölkə ərazisində genişləndirməyə davam edir. Aparılan təkmilləşmə işləri nəticəsində 4G şəbəkəsi hazırda ölkə əhalisinin 91,5%-ni əhatə edir.**

Mobil operator LTE texnologiyalı baza stansiyalarını Azərbaycanın 53 regionunda quraşdırmağa nail olub. Hazırda "Nar"ın hər üç abunəçisindən biri aktiv 4G istifadəçisidir. Ümumilikdə isə 4G istifadəçilərinin sayı 850 mini ötüb.

"Nar" 2019-cu ildə şəbəkədə quraşdırılmış 1018 ədəd LTE-A texnologiyalı baza stansiyaları da daxil olmaqla, 2740-dan çox 4G texnologiyalı baza stansiyası və 2722 ədəd 3G baza stansiyası ilə abunəçilərini yüksək sürətli şəbəkə ilə təmin edir. Mobil operator hazırda 8500-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.

Sərfəli qiymətlərə təklif olunan internet paketlərindən və yüksək sürətli mobil şəbəkədən yararlanmaq üçün siz də "Nar"a qoşula bilərsiniz. Daha ətraflı məlumatı nar.az səhifəsindən əldə etmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən, "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub.

*Hazırladı: Ramil QULİYEV*





**Qoç** - Bu gün yaranacaq istəklər, ideyalar və ya quracağınız planları sürətlə reallaşdırmaq asan deyil. Yaxın ətrafınızdakı insanlardan dəstək gözləməyin. Özünüzə qapanmayın, pərişan olmayın.



**Buğa** - Əvvəlcədən hazırlanmış plana riayət etmək çox çətindir. Hadisələr gözlədiyiniz və ya təxminlədiyiniz məcrada inkişaf etmir. Situasiyaya uyğunlaşmasanız, çox çətin olacaq. Yardım heç gözləmədiyiniz yerdən gələcək.



**Əkizlər** - Məhsuldar gündür. Yaradıcı yanaşma, həllərdə orijinallıq tələb edən işlərdə uğur əldə edə bilərsiniz. Fəlsəfə, psixologiya və xarici dillərin öyrənilməsində irəliləyişə nail olacaqsınız.



**Xərçəng** - İşgüzar məsələlərin həlli üçün keçirilməsi gərəkən görüşləri təxirə salmayın. İnadkarlıqla güzəştlər arasında "qızıl orta"nı tapın. Sərt təzyiqə əl atmayın. Müqavilə və anlaşmalar uğurlu olacaq.



**Şir** - Maliyyə məsələlərinin həlli baxımından əlverişli zamandır. Maliyyə və əmlakla bağlı istənilən problemin həllində konstruktiv yanaşma nümayiş etdirin. Güzəştə getməyi bacarın. Əfsuslar olsun ki, güzəşt etməli insan sizsiniz.



**Qız** - Mahiyyət etibarən pis gün deyil və qarşınıza qoyduğunuz məqsədlərə çata bilərsiniz. Realist olun, xülyalara uymayın, illüziyalara qapılmayın. Aza qane olaraq gərəkli istiqamətdə addım-addım irəliləyin.



**Tərəzi** - Sizi maraqlı xəbərlər və olaylar gözləyir. Macəralar aramayın - onlar sizi tapacaq. Ətrafınızda yaşananlara operativ və məntiqi reaksiya verin. Səhvlər etməməyə, yanlışlıqlara yol verməməyə çalışın.



**Əqrəb** - Gərgin və çətin gündür. Günün ikinci yarısı ilk yarıdan daha uğurlu və düşərli olacaq. Ağır, ciddi işləri günün ilk yarısına planlaşdırmayın. Kefinizi durultmaq üçün gərəksiz nəsnə almayın.



**Oxatan** - Yaşam potensialı səviyyəsi aşağı düşəcək. Adi vaxtlarla müqayisədə daha tez yorulacaqsınız. Günün ikinci yarısında əhvalın pisləşməsi, xroniki ağrıların güclənməsi istisna deyil.



**Oğlaq** - Qarşınıza qoyduğunuz məqsədə doğru sürətlə irəliləmək üçün əlverişli gündür. İstirahət istəyinə aldanaraq mühüm işi təxirə salmayın. Diqqəti işə yönəldin. Xırda təfərrüatlar və detalları nəzərdən qaçırmayın.



**Dolça** - Əhəmiyyətli və ya çoxdan gözlənilən hadisə baş verəcək. Narahat olmayın, ciddi problemlər yaranmayacaq. Məqsədə çatmağınıza az qalıb. Bir qədər səbrli olun. Maraqlı kəşflər, ümidverici görüşlər istisna deyil.



**Balıqlar** - Xoş, ahəstə və əsəblərin sakit olduğu gündür. Hansısa işin yarımçıq qalması, harasa gecikməklə bağlı narahatlıq keçirməyin. Təsadüfən xoş işlər baş verəcək. Əsas odur ki, yaşananları diqqətdən qaçırmayın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.